

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 sentyabr 2024-cü il, şənbə
№ 163 (6749)
Qiyməti 60 qəpik




## Çernobbioda görüşlər...



Bax səh. 3



Bax səh. 2

# Qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür

## İlham Əliyev: Təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var

# Yeni iqlim strategiyası hazırlanır

Bax səh. 4



# Zəngəzur dəhlizi layihəsinə qarşı olanlar...

Bax səh. 4

# Regionda Aİ missiyasına ehtiyac yoxdur

Bax səh. 4

## 2025-2029-cu illərə dair strategiya...

**Dünya Bankı Tərəfdaşlıq Çərçivəsi hazırlayır**

Baş nazir Əli Əsədovun Dünya Bankı (DB) Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) Avropa üzrə Regional Direktoru İnes Roşanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə Azərbaycanla DB arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud vəziyyəti müzakirə olunub. Dünya Bankının Azərbaycanla qarşıdakı illərə dair strateji əməkdaşlığını nəzərdə tutan Ölkə Tərəfdaşlıq Çərçivəsinin (ÖTÇ) əhəmiyyətinə toxunulub. 2025-2029-cu illəri əhatə edəcək yeni ÖTÇ-nin ikitərəfli əməkdaşlığın daha da...

Bax səh. 5

## Bakı Təşəbbüs Qrupu beynəlxalq qurumlara rəsmi məktub ünvanlayıb

Bakı Təşəbbüs Qrupu 2024-cü il sentyabrın 3-də Bakıda keçirilmiş "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın nəticələrinə əsaslanaraq Birləşmiş Millətlər Təşkilatının Baş katibinə, Qoşulmama Hərəkatının sədrinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, Avropa Komissiyasının sədrinə, Ərəb Liqasının Baş katibinə və Afrika İttifaqının sədrinə rəsmi məktub ünvanlayıb.

Məktubda Fransa tərəfindən...

Bax səh. 6

## "Sabit inkişaf, güclü iqtisadiyyat"...

Türkiyənin vitse-prezidenti Cevdət Yılmaz bildirib ki, ölkənin 2025-2027-ci illəri əhatə edən Ortamüddətli İnkişaf Proqramı hazırlanıb. Sənəd makroiqtisadi və maliyyə sabitliyinin qorunması, xarici mühitdən gələn təsirlərin neytrallaşdırılması, uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, yeni reallıqlara uyğun gəlir və fiskal çərçivənin formalaşdırılması, inflyasiyanın sabit həddə qədər endirilməsi və digər makrohədəflər nəzərdə tutulub. C.Yılmaz iqtisadi sahədə milli prioritetlərin əsas istiqamətlərindən biri kimi yerli və xarici investisiyaların...

Bax səh. 6

## Gözləntilər özünü doğrultmur

Rusiya-Ukrayna müharibəsi başlayandan Qərb dövlətləri Kiyevə milyardlarla dollar həcmində hərbi yardımlar göstərir. NATO ölkələri arasında Kiyevə ABŞ daha çox hərbi dəstək verib. Xatırladaq ki, ABŞ-ın Ukraynaya yardımlarını maliyyələşdirmək üçün yeni vəsaitlərin ayrılması məsələsi Konqresdə ötən ilin payızından müzakirə olunsa da, fikir ayrılıqları səbəbindən yekun qərar qəbul olunmurdu. Nəhayət, bu ilin aprelində Konqres 61 milyard dollarlıq yardımı təsdiq etməklə Ukraynaya "müttəfiqliyinə sadiq olduğunu" göstərmək istədi. ABŞ-ın 61 milyard dollarlıq yeni yardım paketində...

Bax səh. 7



# "İstanbul prinsipləri" yenidən gündəmdə

Bax səh. 7



# Metsolanın korrupsiya "macəraları"

Bax səh. 6



Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İtaliyanın paytaxtından Milan şəhərinə gəliblər.

AZƏRTAC xəbər verir ki, Milanın Malpensa hava limanında dövlətimizin başçısını və birinci xanımı İtaliyanın rəsmi şəxsləri qarşılayıblar.

# Qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür

**İlham Əliyev: Təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var**










Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Dünya, Avropa və İtaliya haqqında bilgilər” mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada çıxış edib.

**Tədbirin iştirakçılarının salamlayan moderator dedi:**

- Hər kəsi bu mötəbər forumda salamlayıram. Prezident Matarella çıxışında Avropanun rolu və onun qlobal kontekstdə əhəmiyyətindən danışdı. İcazənizlə bizim hörmətli ilk çıxışçımıza söz verim. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəsinin bu ssenariyə uyğun olaraq hansı mövqedə olduğu barədə danışacaq. Zati-aliləri söz Sizindir.

Dövlətimizin başçısı sessiyada çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli xanımlar və cənablar.

Əvvəlcə dəvətə görə təşkilatçılara təşəkkürümü bildirmək istəyirəm. Mən ikinci dəfədir ki, Çernobio Forumunda iştirak edirəm və iki il əvvəl buradakı iştirakımla bağlı xoş təəssüratlarım var. Bir daha dəvətə görə təşəkkür edirəm.

Mən buraya Romadan gəldim. Dünən mənim Prezident Matarella ilə görüşüm oldu. O, bu səhər burada da gözəl nitqlə çıxış etdi. Dünən, həmçinin mənim Baş nazir Meloni ilə də görüşüm oldu. Görüşlər və müzakirələr zamanı biz bir daha ikitərəfli münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Uzun illər ərzində Azərbaycan və İtaliya strateji tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Müvafiq bəyannamə təqribən 10 il əvvəl qəbul edilib. Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Matarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksək səviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir.

Bizim ticarət əməkdaşlığımız olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Biz artım üçün potensialı yalnız enerji sektorunda deyil, digər sahələrdə də görürük. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da bizim əməkdaşlığımızın vacib hissəsidir.

Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, Cənub Qaz Dəhlizi adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Qeyd etdiyim kimi, boru kəmərinin başlanğıcı Azərbaycandadır və İtaliyaya qədər uzanır. Ancaq marşrut boyu mövcud olan əlavələr və interkonnektorlar sayəsində bu kəmər geniş Avropa və Avrasiya çoğrafiyasını əhatə edir. Burada da artım üçün güclü potensial var. Bu gün biz ən azı üç Avropa ölkəsi ilə qaz təchizatına dair danışıqlar aparırıq.

Bizim ikitərəfli əlaqələrimiz əlbəttə ki, enerji və ticarətlə məhdudlaşmır. Biz hazırda humanitar məsələlər üzərində fəal şəkildə işləyirik. Artıq İtaliya-Azərbaycan Universiteti fəaliyyətə başlayıb və bu, bizim əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir. İtaliyanın beş aparıcı universiteti - Lyuis, Sapyensa, Boloniya, Milan və Turin universitetləri və onların Azərbaycandan olan tərəf müqabilləri bu müştərək təsisatı yaradıb. Bu, bizim gələcək əməkdaşlığımız üçün mühüm əhəmiyyət kəsb edəcək. Çünki orada bu gün təhsil alan və gələcəkdə təhsil alacaq tələbələr İtaliya ilə təbii bağlantı rolunda çıxış edəcəklər. Onlar italyan dilində səlis danışacaq, italyan mədəniyyətini və italyan xalqının geniş tarixi irsini daha yaxından tanıyacaqlar.

Mən giriş sözümü ikitərəfli münasibətlərimizin əhəmiyyətinin vurğulanması ilə başladım. Çünki bu onun göstəricisidir ki, münasibətlər qarşılıqlı etimad və hörmət, qarşılıqlı maraqların nəzərə alınması üzərində qurulursa, o zaman tərəqqinin şahidi oluruq. Bu, bir-birindən uzaqda, fərqli qitələrdə yerləşən ölkələr arasında münasibətlərin necə qurulmalı olduğunun nümunəsidir.

Geosiyasi vəziyyətə gəldikdə, - bir halda ki, mənim çıxışım “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” mövzusuna həsr edilib, - əvvəlcə qeyd etmək istəyirəm ki, təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var.

Bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimiz 30 il ərzində Ermənistanın işğalı altında idi. Beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrinə, o cümlədən Ermənistan qoşunlarının bizim torpaqlarımızdan dərhal çıxarılmasını tələb edən və hüquqi öhdəlik yaradan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, işğal davam etmişdir. ATƏT bu məsələ ilə məşğul olacaq xüsusi bir qrup da yaratmışdır və həmin qrup 28 il ərzində sıfır nəticə hasil etmişdir. Bu, onu nümayiş etdirir ki, ədaləti və sülhü təmin etmək üçün təkcə beynəlxalq hüquq kifayət deyil. Masa üzərində digər amillər də olmalıdır.

O zaman işğal altında olan ərazilərimizin böyük hissəsi 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində azad edildi. Lakin məsələ bununla bitmədi, çünki separatçılar Azərbaycanın suverenliyinə xələl gətirməyə davam edirdilər. Bu məsələdə sonuncu nöqtə ötən ilin sentyabrında qoyuldu və Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi. Münaqişəyə nəhayət son qoyuldu və bu, məhz belə də olmalı idi.

Bu, bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir. Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər. Beləliklə, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik. Bu, mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının, - halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır, - özü belə düzgün istiqamətdə atılan addımdır.

Beləliklə, biz ümid edirik ki, sülh danışıqlarının başlanmasına dair Azərbaycanın təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaqdır. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər. Baxmayaraq ki, burada işğaldan əziyyət çəkmiş və ərazisinin təqribən 20 faizinin tamamilə dağıdıldığı ölkə məhz Azərbaycandır.

Burada giriş sözümdə qeyd etmək istədiyim sonuncu məqam ondan ibarətdir ki, iki aydan sonra biz ən böyük iqlim konfransına - COP29-a ev sahibliyi edəcəyik. Bununla bağlı qərar ötən ilin dekabrında verildi və bizim hazırlıq üçün bir ildən az vaxtımız var idi. Burada ən vacib məqam ondan ibarətdir ki, bu qərar 200-yə yaxın ölkə arasında konsensusa əsaslanırdı. Biz bunu Azərbaycana olan ehtiramın təzahürü hesab edirik. Tarixdə ilk dəfə COP bizim regionumuzda keçiriləcək.

Biz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışırıq. Hər kəsə məlumdur ki, iqlim mövzusu ölkələri və xalqları ayıran bir mövzudur. Qarşılıqlı iddialar və ittihamlar var - kim planetimizə xələl gətirməkdə daha çox günahkardır, kim daha çox ödəməlidir və sair. Yəni, beynəlxalq arenada qlobal aktor olmasaq belə, zənnimcə qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür.

Bununla yanaşı, onu da vurğulamaq istərdim ki, bir çox Avropa ölkəsi ilə fəal əməkdaşlığa malik olmağımız, - yeri gəlmişkən Avropa İttifaqının 10 üzvü rəsmi olaraq Azərbaycanın strateji tərəfdaşıdır, - 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 4 il sədrliyimiz onu nümayiş etdirir ki, biz yaxşı nəticə hasil edə biləcək ölkəyik.

Bunlar mənim giriş sözümdə toxunmaq istədiyim mövzular idi. Bir daha bu auditoriya qarşısında çıxış etmək imkanına görə təşəkkürümü bildirirəm.

**Moderator:** Siz körpülərin qurulması haqqında danışdınız. Rusiya-Ukrayna münaqişəsinə son qoyulması kontekstində müzakirələrdə ölkənizi necə görürsünüz? Hər hansı rolunuz və ya təklifləriniz ola bilərmi? Çünki hazırda bir sıra təkliflər və platformalar mövcuddur.

**Prezident İlham Əliyev:** Nəzəri cəhətdən bu mümkündür. Çünki Rusiya və Ukrayna ilə yanaşı, biz 70 il ərzində Sovet İttifaqının tərkib hissəsi olmuşuq. Bizim xalqlararası və siyasi səviyyədə şaxələndirilmiş münasibətlərimiz var. Bu gün bizim Rusiya və Ukrayna ilə çox yaxşı münasibətlərimiz var. Biz Ukrayna da daxil olmaqla, bütün ölkələrin ərazi bütövlüyünü və suverenliyini güclü şəkildə dəstəkləyirik.

Bununla yanaşı, biz Rusiyaya qarşı sanksiyalar kampaniyasına qoşulmamışıq və belə bir niyyətimiz yoxdur. Beləliklə, biz praqmatik münasibətlərin mövcudluğu fonunda rol oynaya bilərik. Biz heç vaxt bunun təşəbbüskarı olmamışıq, çünki bu işdə yaxından iştirak etmək istəyənlər kifayət qədərdir. Ancaq bizim iştirakımıza zərurət yaranarsa, buna hazırıq.

Burada deyə bilərəm ki, Ukrayna ərazisində qazın tranzitinin davam etdirilməsi ilə bağlı Rusiya, Ukrayna və Avropa təsisatları tərəfindən bizə müraciət edildi. Bir neçə aydır ki, biz ümumi məxrəcə gəlmək üçün böyük səylər göstəririk. Məlumdur ki, bu tranzit dayanarsa, - bu isə dekabr ayına təsadüf edəcək, - bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Biz, sadəcə, həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyirik. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaqdır.

Bizdə müəyyən nikbinlik var. Çünki biz bu kontekstdə hər iki ölkə ilə təmasdayıq və görürük ki, ciddi irəliləyiş üçün zəmin var. Ancaq tərəfimdən təfərrüatların açıqlanması erkən olar. Burada uğura nail ola bilsək, zənnimcə biz bütün regionu viran edən bu müharibəyə son qoymaq üçün əlavə addımlar ata bilərik.

**Moderator:** Yəni, burada müəyyən imkanlar var?

**Prezident İlham Əliyev:** Bəli, hazırda hər iki ölkə Rusiya qazının tranziti müqaviləsinin uzadılması və Azərbaycan qazının Rusiya və Ukrayna ərazisindən Avropaya nəqli ilə bağlı müzakirələri Azərbaycan vasitəsilə aparır.

**Moderator:** Prezident Əliyev, bizimlə birlikdə olduğunuza görə Sizə təşəkkür edirəm. Ancaq Sizə bu sualı mütləq verməliyəm. Bu günlərdə ölkəniz Avropa Şurasının Parlament Assambleyasının bir sıra üzvlərini arzuolunmaz şəxs elan edib. Onların sırasında 5 italyan deputat da var. Bu, körpülərin qurulması, diplomatiyanın əhəmiyyəti və təmasların genişləndirilməsi ruhuna bir qədər ziddir.

**Prezident İlham Əliyev:** Bu suala görə təşəkkür edirəm, çünki bu məsələ ilə bağlı müəyyən anlaşılmazlıq var. Bu suala ətraflı cavab vermək üçün mən 20 il keçmişə qayıtmaq istəyirəm. Azərbaycan o zaman, 2001-ci ildə Avropa Şurasına üzv olub. O zaman parlamentin üzvü idim və Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinin ilk rəhbəri idim. Yəni, biz 2001-ci ildən etibarən orada idik. Bu illər enişli-yoxuşlu olub, əməkdaşlığımızın fəal mərhələsi də, Avropa Şurasının Parlament Assambleyası tərəfindən tənqid olduğumuz dövrlər də olub. Biz Avropa konvensiyalarının əksəriyyətinə qoşulmuşuq. Biz Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını icra edirik və sair.

Lakin bu ilin yanvar ayında baş vermiş hadisə qırmızı xəttin keçilməsi olub. Bu, nədən baş verdi? Giriş sözümdə qeyd etdiyim kimi, ötən il suverenliyimizi tam şəkildə bərpa etdik. Ötən ilin sentyabrında Azərbaycan torpağında separatçılığın kökü kəsildi. Biz bu gün Ukraynanın etməyə çalışdığından fərqli heç bir şey etməmişik. Ukrayna bu gün Qərbin çox geniş dəstəyinə rəğmən uğursuz şəkildə ərazi bütövlüyünü bərpa etməyə çalışır. Biz özümüz isə heç bir dəstək olmadan ərazi bütövlüyümüzü bərpa etdik.

Bundan sadəcə bir neçə ay sonra Avropa Şurasının Parlament Assambleyası bizim nümayəndə heyətini səsvermə hüququndan məhrum etdi. Bu, suverenliyimizi bərpa etdiyimiz üçün bizə qarşı tətbiq edilən sanksiya idi. Biz öz torpağımızda döyüşdük və hər hansı təcavüzə əl atmadıq.

Buna səs verənlər bizi Avropa Şurasında görmək istəməyənlərdir. Yəni, Azərbaycanın qərarı adekvat idi. Bizim qərarımız buna cavab idi. Onlar tərəfindən qərarın dəyişdiriləcəyi və bizim hüquqlarımızı bərpa etdikləri təqdirdə, gələn ilin yanvar ayında belə bir fürsət olacaqdır, bizim tətbiq etdiyimiz qadağa aradan qaldırılacaq. Mən təəssüf edirəm ki, İtaliya parlamentinin üzvləri bu qərarın lehinə səs veriblər. Səmimi desəm mən 70-dən artıq şəxsdən ibarət bu siyahıda olanların adlarını bilmirəm. Ancaq vəziyyəti yaxşılaşdırmaq üçün imkan var. Bizim nümayəndə heyətimizin fəaliyyəti bərpa edilməlidir və o zaman bu qadağa aradan qaldırılacaq.

**Moderator:** Cavabınıza görə təşəkkür edirəm. İstənilən halda körpülərin qurulması qarşılıqlı tədbirlərin tətbiqindən daha münasib yoldur. Prezident Əliyev, bizimlə birlikdə olduğunuza görə bir daha təşəkkür edirəm.

# Çernobbioda görüşlər...

## İlham Əliyev İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Çernobbio şəhərində İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı “Ansaldo Energia” şirkətinin hazırda Mingəçevirdə Azərbaycanın ən böyük İstilik Elektrik Stansiyasının yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olundu. Orada 1280 meqavat gücündə yeni tikilən stansiya üçün “Ansaldo Energia” şirkəti tərəfindən istehsal olunan dörd ədəd qaz turbininin Azərbaycana gətirilərək quraşdırılmaqda olduğu vurğulandı. Bildirildi ki, layihənin bu ilin sonunda və ya gələn ilin əvvəlində yekunlaşdırılması nəzərdə tutulur.

Görüşdə “Ansaldo Energia” şirkəti ilə, o cümlədən yaşıl enerji sahəsində fəaliyyətin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, bu şirkət Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsində iştirakda çox maraqlıdır. Bu xüsusda, şirkətin “AzərEnerji” ASC ilə əməkdaşlıq etmək niyyətində olduğu vurğulandı.

Azərbaycanın Energetika Nazirliyi və “AzərEnerji” ASC ilə “Ansaldo Energia” şirkəti arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığı xatırlandı, birgə fəaliyyətin gələcəkdə də davam etdiriləcəyinə əminlik bildirildi.

## İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Xalid bin Əbdüləziz Əl-Falih Səudiyyə Ərəbistanı Krallığının Ali rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanı Krallığının Ali rəhbərliyinə çatdırmağı xahiş etdi.

Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladı.

Söhbət zamanı iki ölkə arasında xüsusilə enerji sektorunda əməkdaşlıq məsələləri, o cümlədən Səudiyyə Ərəbistanı Krallığının “Acwa Power” şirkətinin fəaliyyəti müzakirə olundu. Hazırda Azərbaycanda və regionda ən böyük külək enerjisi stansiyasının tikintisinin davam etdirildiyi qeyd olundu, gələn ilin sonunda həmin stansiyanın istifadəyə veriləcəyi bildirildi. “Acwa Power” şirkəti ilə Azərbaycanın Energetika Nazirliyi arasında ölkəmizdə ilk dəfə 200 MVa saxlama güclərinin yaradılması ilə bağlı razılaşmaya uyğun olaraq birgə fəaliyyətin həyata keçirildiyi vurğulandı, bu işlərin COP29-dək başa çatdırılmasının nəzərdə tutulduğu qeyd edildi.

Görüşdə “Acwa Power” şirkətinin Azərbaycandan Avropaya yaşıl enerjinin ixracı sahəsində əməkdaşlıqda maraqlı olduğu diqqətə çatdırıldı. Bununla bağlı Azərbaycanın Energetika Nazirliyi və “Acwa Power”in Xəzər dənizində külək enerjisi layihələri üzərində iş apardıqları qeyd edildi, bunun da növbəti mərhələdə yaşıl enerjinin ixracı üçün mənbə kimi rol oynayacağı vurğulandı.



# Azərbaycan - İtaliya: Yüksək səviyyəli siyasi dialoq

Azərbaycanla İtaliya arasında siyasi gündəliyə aid müzakirələr bu günlərdə Prezident İlham Əliyevin dost ölkəyə uğurlu işgüzar səfəri çərçivəsində diqqət çəkilən mühüm istiqamətlərdən biri olub. Belə ki, həm Prezident İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə qatıldığı işçi naharda, həm də dövlətimizin başçısının İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşündə rəsmilər ölkələrinin siyasətlərinin prioritetləri barədə bir-birlərini məlumatlandırıblar. Yüksək səviyyədə aparılan müzakirələrdə tərəflər əlaqələrin hazırkı səviyyəsindən məmnunluqlarını bildiriblər, həmçinin münasibətlərin daha da dərinləşdirilməsində maraqlı olduqlarını bir daha nəzərə çatdırıblar.

## Strateji tərəfdaşlıq münasibətləri

Strateji tərəfdaşlıq dövlətlərarası diplomatiyanın ən yüksək səviyyəsi sayılır və qarşılıqlı münasibətlərin xüsusi səciyyə daşıdığını nümayiş etdirir. Qısa müstəqillik tarixində Azərbaycanın dünyanın bir sıra ölkələri, o cümlədən də Avropa İttifaqı (Aİ) məkanına daxil olan10-dək dövlətlə belə münasibətlər qurması böyük nailiyyətdir. Azərbaycanla İtaliya da strateji tərəfdaşlardırlar. İki ölkə arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Hər iki tərəf qarşılıqlı münasibətlərin yol xəritəsi sayılan bu sənəddə əksini tapan müddəaların həyata keçirilməsinə güclü siyasi iradə nümayiş etdirir. Romada Prezident İlham Əliyevin qatıldığı tədbirlərdə ifadə olunan fikirlər bunu bir daha təsdiqlədi. Məsələn, Prezident Sercio Mattarella işçi naharda Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyib, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğulayıb.

Strateji tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun olaraq liderlər və digər yüksəksəviyyəli rəsmilər arasında sıx təmaslar mövcuddur. Romada Prezident İlham Əliyevin qatıldığı tədbirlərdə qarşılıqlı səfərlərin önəminə xüsusi diqqət çəkilib. Sercio Mattarella özünün Azərbaycana səfərini məmnunluqla xatırlayıb. Qeyd edək ki, bəhs olunan səfər 2018-ci ilin iyulunda baş tutub və kifayət qədər uğurlu olub. Bu səfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri reallaşıb. Bu səfər çərçəvəsində müxtəlif sahələri əhatə edən 28 sənəd imzalanıb. Dövlətimizin başçısının 2022-ci ilin sentyabrında İtaliyaya baş tutan işgüzar səfərinin gündəliyi də kifayət qədər geniş olub. İşçi naharda söhbət zamanı son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən dövlətimizin başçısı da münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını məmnuniyyətlə qeyd edib, İtaliya-Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğulayıb. Eyni zamanda, Prezident İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət edib və Sercio Mattarella dəvəti məmnunluqla qəbul edib.



## Azərbaycan-İtaliya strateji tərəfdaşlığının regional və qlobal maraqlar kontekstində önəmi

İtaliya dünyada böyük nüfuzu olan, eyni zamanda Avropada siyasi təsir imkanları getdikcə artan dövlətdir. Bu ölkə dünyanın 7-ci böyük iqtisadiyyatına malikdir. Azərbaycan isə müqayisədə kiçik ölkə olsa da, respublikamız yerləşdiyi Cənubi Qafqaz coğrafiyasının lider dövlətidir. İşçi naharda Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Son illərdə bir sıra mötəbər beynəlxalq tədbirlərə, o cümlədən də cari ilin noyabrında baş tutacaq COP29 iqlim konfransına evsahibliyi hüququnun Azərbaycana verilməsi ölkəmizin dünyada artan nüfuzunun təsdiqidir. Bütün bu kimi faktlara istinadən deyə bilərik ki, Azərbaycan və İtaliyanın strateji tərəfdaşlığı yalnız bu iki ölkənin deyil, bütövlükdə Avrasiyanın siyasi və iqtisadi maraqları kontekstində böyük önəm daşıyır. İki dost ölkə qlobal həmrəyliyin dərinləşməsinə davamlı töhfələr verirlər və bu istiqamətdə əməkdaşlıq etməyə, səylərini əlaqələndirməyə hazırdırlar. İtaliyanın ölkəmizin noyabrda ev sahibliyi edəcəyi COP29 konfransı ilə əlaqədar sərgilədiyi mövqe bunu bir daha təsdiqləyir. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğulayıb. Oxşar fikirləri həmçinin İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni də səsləndirib. O, konfransda məmnuniyyətlə iştirak edəcəyini deyərək Azərbaycanın COP Prezidentinin G20 çərçivəsində İtaliyada keçirilən ekologiya nazirlərinin toplantısında iştirak etdiyini diqqətə çatdırıb.



## Azərbaycanın sülh gündəliyi

Qalib Azərbaycan postmüharibə mərhələsində geniş əhatə dairəsinə malik sülh gündəliyinə malikdir və özünün davamlı sülh istəyini tərəfdaş ölkələrlə həmişə bölüşür. Bu baxımdan dost İtaliyada keçirilən tədbirlər də istisnalıq təşkil etmədi. Dövlətimizin başçısı işçi naharda sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ciddi nailiyyətlərin əldə edildiyini, ikitərəfli xarakter daşıyan bu proses çərçivəsində artıq 12 kilometrdən çox sərhədyanı ərazinin həm də demarkasiya olunduğunu, 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 Azərbaycan kəndinin də ölkəmizin nəzarətinə qaytarıldığını bildirib.

Tənzimləmə prosesində ikitərəfli formatda aparılan danışıqlarda bu kimi uğurlu nəticələr əldə olunmasına baxmayaraq, Ermənistanın tutduğu mövqe sülh prosesinə ciddi əngəllər yaradır. Məsələn, Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olması sülh sazişinin imzalanmasına böyük maneədir. Prezident İlham Əliyev Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmini vurğulayıb və bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacağını bildirib.

İşçi naharda İtaliyanın Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsi prosesində tutduğu mövqeyə də diqqət çəkilib. Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd edib.

***Mübariz ABDULLAYEV***

# Azərbaycanın bir nömrəli ticarət tərəfdaşı

### İtaliya ilə əməkdaşlığın gündəliyi strateji hədəfləri nəzərdə tutur

Azərbaycanın yaxın dostu və siyasi-iqtisadi münasibətlərdə etibarlı tərəfdaşı olan İtaliya ilə əlaqələr son illərdə ən yüksək mərhələyə çatmaqla Avropa regionu ölkələri üçün mükəmməl nümunəyə çevrilib. Rəsmi Roma sadiq və prinsipial dövlət kimi Azərbaycanın haqlı mövqeyini, yürütdüyü qətiyyətli siyasəti daim dəstəkləyərək öz strateji baxışılarını açıq və konkret olaraq ifadə edib. Avropa İttifaqı, Avropa Şurası, AŞPA, ATƏT kimi təşkilatlarda Azərbaycanla sıx əlaqələri dərinləşdirən İtaliya ölkəmizin Avropaya inteqrasiyasında da səmimi və dürüst siyasi mövqeyini sərgiləyib. Bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqazda Avropa İttifaqının ən yaxın strateji tərəfdaşına çevrilib.

## 15,7 milyard dollar həcmində ticarət dövriyyəsi...

Ölkələrimiz arasında iqtisadi-ticari əməkdaşlığın dinamikası da dayanmadan hər il yüksəlib və iqtisadi münasibətlərin keyfiyyəti ilbəil zənginləşib. İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. İtaliyanın Cənubi Qafqaz ölkələri üzrə ümumi ticarət dövriyyəsinin 90 faizdən çoxu Azərbaycanın payına düşür. 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 15,7 milyard dollar təşkil edib. Eyni zamanda, İtaliya Azərbaycanın enerji ixracında ən böyük partnyorudur. Son illərdə qeyri-neft sektoru üzrə də ciddi əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və s. sektorlarda İtaliyanın 114 şirkəti fəaliyyət göstərir. İtaliya şirkətləri, həmçinin ölkəmizin neft-qaz sektorunda dəyəri 9,9 milyard dollar olan 277 layihədə, qeyri-neft sektorunda isə dəyəri 708 milyard dollar olan 37 layihədə podratçı kimi iştirak edirlər. Bu statistika ikitərəfli münasibətlərdə iqtisadi təmasların müasir vizyonunu əks etdirməklə qarşıdakı dövr üçün yeni yol xəritəsinin konturlarını müəyyən edir.

İki ölkə arasında əlaqələr durmadan artır, sərmayə qoyuluşları təşviq edilir. Ötən il “Ansaldo Energia” ilə “AzərEnerji” arasında imzalanan və dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkətinin Azərbaycandakı yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchiz edəcəyinə dair razılıq əldə olunub ki, bu da italyan şirkətlərinin Azərbaycanın energetika sektorunda payını artırması deməkdir.

Həmçinin, müdafiə sənayesi sahəsində sıx əlaqələr yeni keyfiyyət məzmunu almaqdadır, Azərbaycanın güclü və rəqabətyönümlü müdafiə sənayesi sektorunun formalaşdırılması qarşı tərəfin marağını artırmaqla müasir hərbi-sənaye platformasının qurulmasını labüdləşdirib. Bu çərçivəyə əsasən, birgə müdafiə texnologiyalarının mübadiləsi və inkişaf etdirilməsi nəzərdə tutulur. İtaliyanın “Leonardo” şirkətinin Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki modernləşdirilməsi proqramı çərçivəsində Azərbaycana “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsi tədarük etməsi də həmin strateji proqramların tərkib hissəsidir.



Balkan regionu ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan Azərbaycanın təbii qazı Trans-Adriatik Boru kəməri vasitəsilə Balkan regionundan Adriatik dənizindən keçməklə İtaliyanın Apuliya regionu sahillərinə çatır. Bu isə İtaliyanın da faktiki olaraq qaz təchizatı şəbəkəsinə qoşulması deməkdir.

## Qaz və “yaşıl enerji” nəqlində yeni hədəflər...

Azərbaycan və İtaliya arasında siyasi, iqtisadi, elmi, texniki və mədəni əlaqələrin dərinləşməsində sözsüz ki, dövlət başçılarının və digər rəsmi şəxslərin qarşılıqlı səfərləri, səfərlər çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan müqavilə və sazişlərin imzalanmasının böyük əhəmiyyəti var.

Azərbaycanın dövlət başçısının ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümündə - 2022-ci il avqustun 31-də İtaliyaya işgüzar səfəri çərçivəsində imzalanan sənədlər münasibətlərin daha da dərinləşməsinə, strateji əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına imkan yaradıb.

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 5-də Romaya səfəri və imzalana sənədlər iki ölkə arasında strateji tərəfdaşlığı daha da inkişafında yeni hədəfləri müəyyən etməklə çoxtərəfli münasibətlərdə yeni səhifə açır. Səfər enerji sahəsində əməkdaşlığın məzmun və gündəliyinin də yenidən müəyyənləşməsinə səbəb oldu. Belə ki, Prezident İlham Əliyevin Romada İtaliyanın “Eni S.P.A” şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşündə də enerji sahəsində yeni imkanlara nəzərə salınıb, SOCAR və “Eni” şirkəti arasında müasir enerji formatının əhəmiyyətinə toxunulub. Yeri gəlmişkən, Azərbaycandan “Xəzər-Qara dəniz-Avropa Dəhlizi” ilə Avropaya ixrac olunacaq “yaşıl enerji”nin də əsas təyinat nöqtələrindən biri İtaliyadır. Ona görə də, yeni enerji gündəliyində Romanın strateji yeri yenə də öz möhkəm statusunu saxlayacaq.

İtaliyanın Azərbaycanla əməkdaşlığının yeni gündəliyində bərpa olunan enerjinin istehsalı və nəqli, bu sahəyə yeni texnologiyaların gətirilməsi və digər yaşıl hədəflər daxildir. Bu prioritetlərə uyğun olaraq Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) ilə İtaliyanın “Eni S.P.A” şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu”u imzalanıb ki, sənəd Avropaya qaz nəqlində yeni imkanların səfərbər olunmasını nəzərdə tutur. Belə ki, SOCAR-ın törəmə müəssisəsi olan “SOCAR Midstream Operations” MMC qaz ixrac boru kəmərlərində və obyektlərində SOCAR-ın strateji səhmdar hüququnu və maraqlarını təmsil etməklə Cənubi Qafqaz Boru Kəmərinin kommersiya və texniki operatoru imkanlarını da koordinasiya edir. Hazırda Cənubi Qafqaz Boru Kəmərinin əsas arteriyası olan TAP-ın genişləndirilməsi Avropa üçün strateji əhəmiyyət daşıyır və yeni anlaşma sənədi bu baxımdan Avropa İttifaqı regionuna gələcəkdə qazın həcmlərinin artırılmasında zəminverici rol oyanayacaq.

## “Eni” və SOCAR-ın təmiz enerji planları...

“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının “Eni S.P.A” şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu” isə təmiz enerjiyə keçid və ekoloji səmərəliliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İtaliya Avropada təmin enerjiyə keçid üzrə ən iddialı ölkələrdən biri kimi qətiyyətli layihələr icra edir və öz təcrübəsini yaxın tərəfdaşları ilə bölüşür. Bu çərçivəyə əsasən, Azərbaycanda ənənəvi enerjidən günəş və külək, su elektrik stansiyalarının istifadəyə verilməsində və qazla işləyən stansiyaların yeni enerjiyə keçidində yeni modullar tətbiq ediləcək. Nəticədə “Eni” şirkətinin SOCAR-la bu istiqamətdə əməkdaşlığı isə ölkəmiz 2030-cu ilə qədər istixana qazlarının səviyyəsinin 35 faizə qədər azaldılması öhdəliyinin icrasında mühüm bir vasitə rolunu oynayacaq.

“Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının “Eni S.P.A” şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu”u da bərpa olunan enerji strategiyasının bir hissəsi kimi nəzərdə tutulur. Bioloji məhsullardan, əsasən bioloji tullantıların emalından alınan bioyanacaq istehsalına başlanması isə Azərbaycanda kənd təsərrüfatı tullantılarınım emalı zəncirinin qurulması və regionda müştərək iri müəssisəsinin yaradılması ilə nəticələnəcək.

***ELBRUS CƏFƏRLİ***

# Çernobbio forumunun əsas qonağı

Azərbaycan Prezidenti İlham Əliyevin dost İtaliyaya bu günlərdə baş tutan işgüzar səfərinin gündəliyi kifayət qədər genişdir. Dövlət başçımız səfər çərçivəsində həmçinin nüfuzlu Çernobbio Forumuna qatılıb. Qeyd edək ki, bütün dünyada böyük nüfuza malik Beynəlxalq Forum "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən təşkil olunub.

## Sayca 50-ci forum

Çernobbio şəhərində baş tutan Beynəlxalq Forum sayca 50-cidir. Forum barəsində daha yaxşı təsəvvür yaransın deyə əvvəlcə tədbirin təşkilatçısı barədə qısa məlumat təqdim etmək istərdik. 1965-ci ildən fəaliyyət göstərən "The European House - Ambrosetti" İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. O, Mərkəzi Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir. Dünyanın beyin mərkəzləri ilə bağlı aparıcı reytinqlərə əsasən İtaliyada birinci və Avropada ilk onluqda qərarlaşan "The European House - Ambrosetti" İtaliya və Avropa şirkətləri üçün əhəmiyyət daşıyan məsələlərin müzakirə olunduğu forumlar, müxtəlif tədbirlər keçirərək italyan şirkətlərinin qlobal tərəfdaşları ilə əlaqələrinin yaradılmasına, eyni zamanda, əməkdaşlığın təşviqinə xidmət edir.

"The European House - Ambrosetti", eyni zamanda, İtaliya və Avropa üçün potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir göstərmək imkanına malik, ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirərək yüksək səviyyəli müzakirə platformaları təqdim edir.

"The European House - Ambrosetti" müstəqil qurum olsa da, müşahidələr göstərir ki, Çernobbio Forumuna İtaliya hökuməti tərəfindən böyük dəstək göstərilir. "The European House - Ambrosetti", həmçinin İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi ilə sıx əməkdaşlıq edir. Bu qurum bir çox hallarda İtaliya XİN-in iqtisadi beynəlmiləlləşmə ilə bağlı fəaliyyətinə cəlb olunur.

İllik Çernobbio Forumu "The European House - Ambrosetti"nin ən əsas tədbiri hesab edilir. Bu forum İtaliyada dövlətlərin rəhbər şəxslərinin, rəsmilərinin, İtaliya və Avropanın böyük şirkətlərinin rəhbərlərinin bir araya gəldiyi ən nüfuzlu tədbir hesab edilir. Ənənəvi olaraq sentyabr ayının əvvəlində Komo gölünün sahilində yerləşən Villa d'Este-də keçirilən Çernobbio Forumu yüksək səviyyəli qonaqlar, beynəlxalq siyasi və iqtisadi səhnənin aparıcı liderləri ilə görüşmək və müzakirələr aparmağa şərait yaradır. Forum zamanı nüfuzlu ekspertlərin töhfəsi ilə biznes ictimaiyyəti və İtaliya üçün aktual olan məsələlərlə bağlı hazırlanmış ən mühüm tədqiqatların təqdimı keçirilir.

Ənənəvi olaraq üç gün davam edən forumun ilk günü adətən əsas qlobal tədbirlərə həsr olunur və müzakirəyə çıxarılan məsələlər əsasən iqtisadi, geosiyasi və elmi-texnoloji xarakter daşıyır. Həmin gün İtaliya üçün xüsusi önəm daşıyan ölkələrin dövlət və hökumət başçıları, həmçinin rəsmi şəxsləri əsas qonaq qismində çıxış edirlər. İkinci gündə isə diqqət daha çox Avropaya yetirilir, Avropa İttifaqının bütün institutlarının nümayəndələrinin və rəsmilərinin iştirakı ilə Aİ-nin qarşılaşdığı ən ümdə məsələlər ətrafında fikir mübadiləsi aparılır. Forumun üçüncü günü isə İtaliyaya həsr olunur və həmin tədbirlərdə ölkənin hökumət rəsmiləri, maliyyə və biznes dünyasının nümayəndələri iştirak edirlər.




## Ölkəmizin beynəlxalq səviyyədə artan nüfuzunun daha bir təsdiqi

Multiregional xarici siyasət kursuna malik olan Azərbaycan beynəlxalq səviyyədə milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirir. Eyni zamanda, ölkəmiz Cənubi Qafqaz coğrafiyasının lider dövləti olmaqla yanaşı, qlobal aktora çevrilməkdədir. Ölkəmizin qlobal əməkdaşlığa, beynəlxalq səviyyədə təhlükəsizliyin təmin olunmasına verdiyi töhfələr getdikcə artır. Prezident İlham Əliyev davamlı olaraq qlobal həmrəyliyin möhkəmlənməsini hədəfləyən təşəbbüslər irəli sürür. Yeni növ koronavirus pandemiyası dönəmində dövlətimizin başçısının beynəlxalq birliyə etdiyi humanitar çağırışlar hər kəsə yaxşı məlumdur. Bütün bunlar da dünyada Azərbaycana və onun Liderinə böyük nüfuz qazandırıb. Bu gün beynəlxalq səviyyədə Azərbaycan ləyaqətli dövlət kimi tanınır və müxtəlif məsələlərdə ölkəmizin tutduğu ədalətli mövqeyi ilə hesablaşırlar. Təkcə son illərdə Prezident İlham Əliyevin Avropa Siyasi Birliyinin, Ərəb Dövlətləri Liqasının, Şanxay Əməkdaşlıq Təşkilatının və digər mötəbər beynəlxalq təsisatların sammitlərinə fəxri qonaq qismində dəvət olunması bunun əyani təsdiqidir. Eyni zamanda Azərbaycan dialoq məkanına çevrilib. Cari ilin noyabrında ölkəmiz daha bir qlobal tədbirə - BMT-nin COP29 konfransına ev sahibliyi edəcək.

Bütün bu kimi faktlar, o cümlədən Prezident İlham Əliyevin Çernobbio beynəlxalq forumunda əsas qonaq kimi iştirakı ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuzunun, etibarlı tərəfdaş statusunun, regionun aparıcı aktoru olmasının əyani təzahürü, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfənin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsidir. Xatırladaq ki, dövlətimizin başçısının 2022-ci ildə keçirilən forumdakı çıxışı və xarici media nümayəndələrinin suallarına verdiyi ətraflı cavablar forum iştirakçılarının böyük marağına səbəb olmuşdu.

Onu da qeyd edək ki, bu nüfuzlu forumun işinə, eyni zamanda, bir sıra dövlət və hökumət başçıları, o cümlədən İtaliya Respublikasının Prezidenti Sercio Mattarella (videokonfrans vasitəsilə), İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni, Ukrayna Prezidenti Volodimir Zelenski, Macarıstanın Baş naziri Viktor Orban, həmçinin senatorlar Lindsey Graham və Ben Cardin, ABŞ Nümayəndələr Palatasının sədri Mayk Conson və digər nüfuzlu şəxslər qatılıblar.

***Mübariz FEYİZLİ***

# Yeni iqlim strategiyası hazırlanır

## Sənəd həm qlobal, həm də milli prioritetləri əks etdirəcək

İqlim hədəflərinə nail olmaq üçün qlobal miqyasda dövlətlərin üzləşdikləri çətinliklərdən biri hüquqi çərçivələrlə bağlıdır. Azərbaycan iqlim dəyişmələri ilə mübarizə istiqamətində həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlər həyata keçirməkdədir. Belə ki, İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq qərarı əsasında "Az karbonlu inkişaf üzrə Milli Strategiya", "Milli Adaptasiya Planı" və digər önəmli sənədlərin hazırlanmasına başlanılıb. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "Prioritet olan İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" adlı 4-cü Prioritetin və "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlı 5-ci Prioritetlərin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və SMART infrastrukturun formalaşması istiqamətində mühüm işlər həyata keçirilir.

## Ətraf mühitin mühafizəsi ilə bağlı sərt iqlim cəzaları...

Azərbaycan milli iqlim qanunvericiliyini beynəlxalq ekoloji konvensiayaların tələblərinə uyğunlaşdırsa da, iqlim dəyişikliyi ilə mübarizənin daha təsirli olması üçün əlavə islahatlara ehtiyac duyur. Əlǝlxüsus da qanunvericilikdə iqlim dəyişikliyinə qarşı daha aydın və konkret mexanizmlərin tətbiqini təmin edəcək çevik icra proseüdurları nəzərdə tutulur. Bu, həm qlobal iqlim öhdəliklərimizin icrasında, həm də iqlim hüquqpozmalarının qarşısının alınmasında daha güclü hüquqi əsaslar yarada bilər. Bu məsələ Bakıda Azərbaycan Hakimlər İttifaqı və Ali Məhkəmənin birgə təşkilatçılığı ilə "Hüquq və iqlim" mövzusunda keçirilən beynəlxalq konfransda daha geniş konteksdə müzakirə olunub və iştirakçılar hüquqi çərçivənin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyələrini veriblər.

COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, hüquqi təkmilləşdirmələrə uyğun olaraq, Azərbaycan hökuməti yeni iqlim strategiyasının hazırlanmasını qərara alıb və artıq bu istiqamətində işlərə start verilib.Yeni iqlim strategiyası həm qlobal öhdəliklərə uyğunlaşmanı, həm də milli prioritetlərin icrasını özündə birləşdirir.

Yeni strategiya bütün iqtisadi sektorları əhatə edərək, aşağı karbonlu inkişafı hədəfləyəcək. Eyni zamanda, bu strateji çərçivə sənədi ekoloji hüquqpozmaların qarşısını almaq məqsədilə ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən ciddi nəzarət tədbirlərinin, hüquq-mühafizə, prokurorluq orqanları tərəfindən qanun pozucularına qarşı tətbiq edilən sərt cəzaların səmərəliliyinə də mühüm təsir göstərəcək.




Nazir bildirib ki, məqsəd yalnız milli deyil, qlobal səviyyədə yeni yanaşmalar və innovativ həll yolları təklif etməkdir. Azərbaycan bu təşəbbüslərlə qlobal səviyyədə yaşıl iqtisadiyyata keçidini dəstəkləməkdə öz liderliyini davam etdirəcək. Bu tədbirlər ölkəmizin beynəlxalq səviyyədə etibarlı və məsuliyyətli tərəfdaş kimi mövqeyini daha da gücləndirəcək.

## İqlim hədəflərinə çatmaq üçün dövlət-özəl maliyyəsinə və xarici sərmayələrə ehtiyac var



İqlim hədəflərinə çatmaq üçün əsas fundamental amillərdən biri də dayanıqlı maliyyə təminatıdır. Beynəlxalq səviyyədə iqlim dəyişmələrinin təsirindən yaranan fiskal risklərin idarə olunması başlıca yer tutur. Belə ki, iqlimlə mübarizə proqramları hədsiz dərəcədə böyükhəcmli maliyyələr tələb edir və bir çox ölkələr həmin hədəfləri müəyyən etməyinə baxmayaraq, maliyyə çatışmazlığı səbəbindən fiskal risklərlə üzləşir. İri maliyyə institutları, o cümlədən Beynəlxalq Valyuta Fondu (BVF) iqlim dəyişmələrinin təsirindən yaranan fiskal risklərin idarə olunması üçün ölkələrə öz tövsiyə və köməyini təklif edir. Azərbaycan da bu prosesdə iştirak etməklə gələcəkdə üzləşə biləcək risklərdən sığortalanmaq istəyir.



Maliyyə naziri Samir Şərifov bildirib ki, iqlim dəyişmələrinin təsirlərinin azaldılması və bu təsirlərə uyğunlaşma ilə bağlı tədbirlərin təmin olunması üçün vəsaitlər tələb olunur və hazırda bu işlərin diaqnostikası aparılır. Eyni zamanda, son iki ildə dövlət büdcəsində ayrıca bəndlərlə iqlim məsələlərinə həsr olunan maliyyə vəsaitlərinin ayrılmasına başlanılıb.

Sözsüz ki, iqlim maliyyəsi ehtiyaclarını qarşılamaq üçün ölkələrin yerli resursları kifayət etmir və əlavə maliyyə resursları tələb olunur. Bu, dünyada geniş tətbiq olunan çoxtərəfli inkişaf banklarının resurs bazalarının artırılması, özəl kapitalın iqlim maliyyəsinə cəlb edilməsi və əsas mənbələrdən biri beynəlxalq maliyyə institutlarının sərmayələridir. Azərbaycanın bu istiqamətdə həm özəl kommersiya qurumları, həm də xarici maliyyə institutları ilə əməkdaşlığı artırmaq niyyətindədir. Bir müddət əvvəl Braziliyanın Rio-de-Janeyro şəhərində "Böyük İyirmilik" ("G20") ölkələrinin maliyyə nazirləri və Mərkəzi Bank rəhbərlərinin toplantısında maliyyə təminatları ilə bağlı müzakirə zamanı da Samir Şərifov həmin mövzuya toxunub. O, qlobal iqlim dəyişikliyi üzrə davamlı maliyyə mənbələrinin təmin olunmasında beynəlxalq koalisiyanın birgə dəstəyinin mühüm rol oynadığını, artan iqlim böhranı ilə əlaqədar qlobal çağırışa cavab tədbirləri çərçivəsində təxirə salınmadan maliyyə təminatının yaradılmasının vacibliyini diqqətə çatdırıb. Xüsusilə də, beynəlxalq institutlar qlobal iqlim sazişindən irəli gələn öhdəlikləri üzərinə götürmələrinə baxmayaraq, inkişaf etməkdə olan ölkələrin maliyyə təminatı mexanizminin yaradılmasını yerinə yetirmir. Ona görə də, bu maliyyələşmə mexanizminin yenidən ərsəyə gətirilməsi mövzusunun Bakıda keçiriləcək COP29 Zirvə görüşü zamanı qaldırılması nəzərdə tutulur.

COP29 zamanı, həmçinin, Paris Sazişinin məqsədlərinə çatmaq üçün yeni iqlim maliyyə hədəfinin müəyyənləşdirilməsi və tərəflər arasında razılaşdırılması da istisna olunmur. Eyni zamanda, yaxın vaxtlarda Bakıda "G20"nin iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinin müəyyənləşdirilməsi nəzərdə tutulur ki, bu da iqlim maliyyələşdirilməsində beynəlxalq əməkdaşlıq üçün yeni platforma ola bilər.

***E.CƏFƏRLİ***

# Zəngəzur dəhlizi layihəsinə qarşı olanlar...

## I yazı

Ötən 4 il ərzində Cənubi Qafqaz, Mərkəzi Asiya və Kiçik Asiya regionu vahid geocoğrafi məkan olaraq yeni iqtisadi münasibətlər sistemində öz yerini möhkəmləndirib. Bunun əsas səbəbi isə 2020-ci il Vətən müharibəsinin və 2023-cü il antiterror tədbirlərinin nəticələri, həmin nəticələrin ortaya qoyduğu siyasi-hərbi, eləcə də ticari reallıqlardır. Qlobal miqyasda diqqətlə izlənən bu geostrateji gedişlər özündə bir sıra əsas məqamları birləşdirir.

## Zəngəzur dəhlizi - təhlükəsizlik və ticarət...

İlk olaraq, Azərbaycanın mühüm bir bölgədə təhlükəsizlik arxitekturasını möhkəmləndirdiyi diqqəti cəlb edir. Bu, yeni iqtisadi münasibətlər sistemində ən əsas nüansdır - son illərdə Zəngəzur dəhlizinin digər ticari kommunikasiyaları üstələməsi, daha çox ortaya çəkilməsi də məhz buradan qaynaqlanır. Hazırda Zəngəzur dəhlizinin bütün siyasi-strateji stansiyaları boyunca təhlüksizlik təmin edilib. Son dövrlərdə Çin və Orta Asiya ölkələri ilə Azərbaycan arasında bəzi anlaşma memorandumlarının, eyni zamanda strateji əməkdaşlıqla bağlı sənədlərin imzalanması təhlükəsizlik arxitekturasının daha da möhkəmlənməsinə yol açır. Təbii olaraq, bu qlobal layihədən yararlanacaq hər bir ölkə məsələyə öz töhfəsini verməyə çalışır. Zəngəzur dəhlizinin əhəmiyyəti region ölkələri ilə yanaşı, dünyanın aparıcı gücləri üçün də mühüm prioritetə çevrilir - aparıcı siyasi ekspertlərin fikrincə, ABŞ bu layihəni dəstəkləyir. ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi James O'Brien İrəvanda olarkən öz çıxışında bu barədə danışmışdı - artıq Zəngəzur dəhlizinə dair konsensus mövcuddur. Türkiyə, Azərbaycan, Rusiya, ABŞ və Avropa İttifaqı (Aİ) bu layihəyə ciddi maraq göstərir. Vaxtilə Aİ Ermənistandan keçən və dağıdılmış dəmiryolunun bərpasına bu və ya digər formada maliyyə dəstəyi təklif etmişdi. Bu məqamı gücləndirən əsas amillərdən biri ABŞ Dövlət Departamentinin bir müddət öncə yayılan açıqlaması olmuşdu. Orada bildirilirdi ki, Vaşinqton Şərq-Qərb marşrutu üzrə ticarəti gücləndirmək üçün Azərbaycanla əməkdaşlıq etməyi planlaşdırır. Qeyd olunurdu ki, Azərbaycan Qərb bazarlarını Mərkəzi Asiya ölkələri ilə əlaqələndirərək bu ölkələrin qlobal bazarlara çıxışını təmin edəcək potensiala sahib olan şərq-qərb ticarət yolunun mühüm hissəsidir. Bu açıqlamanın, eyni zamanda siyasi ekspertlərin rəyinin şifrəsində Zəngəzur dəhlizinin açılması məsələsinin beynəlxalq gündəlikdə diqqətlə izlənilməsi faktının növbəti sübutunu görürük.




## Rəsmi Tehran etiraf edir...

Bəs, bu layihəyə qarşı çıxış edən ölkələr hansıdır ? Siyasi analitiklər bu cəhətdən ilk növbədə qonşu İran İslam Respublikasının adını çəkir. Bu mənada bəzi məsələlər bu fikri daha da gücləndirir. Belə ki, bugünlərdə Rusiyanın Tehrandakı səfiri ilə İran Xarici İşlər Nazirliyinin Avrasiya Baş İdarəsinin rəisi və nazir köməkçisi Müctəba Dəmirçilu arasında görüş keçirilib. Görüşlə bağlı yayılan xəbərdə bildirilib ki, İran Ermənistandan keçərək Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək marşruta qarşı çıxıb. Dəmirçilu Rusiyanın Tehrandakı səfiri ilə görüşündə davamlı sülhün təminatçısı və regional sülhün əsası olan ölkələrin milli suverenliyinə, ərazi bütövlüyünə və qarşılıqlı maraqlarına hörmətdən danışıb. O, İranın regionda sülh və sabitliyin bərqərar olmasını, region ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsini dəstəklədiyini və regionun geosiyasi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsinə qarşı olduğunu vurğulayıb. Görüşdə Qafqazda cari proseslər ətrafında fikir mübadiləsi aparılıb, ölkələrin regionda sülh və stabil olmasına dəstək, region ölkələri arasında əməkdaşlığın inkişafına köməklik göstərilməsi, beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsi ilə mübarizə aparılması vurğulanıb.

Qeyd edək ki, bir müddət əvvəl Bakıda səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiyanın "Birinci Kanalı"na açıqlamasında bildirmişdi ki, Paşinyan Qarabağ üzrə üçtərəfli razılaşmaları sabotaj edir. "Təəssüf ki, Ermənistanın Sünik bölgəsindən (Zəngəzur-red.) keçən kommunikasiyalara gəlincə, altında baş nazir Paşinyanın imzası duran sazişi sabotaj edən məhz Ermənistan rəhbərliyidir. Belə bir mövqenin məntiqinin nə olduğunu anlamaq çox çətindir. Amma mən əminəm ki, üçtərəfli görüşlər çərçivəsində, üçtərəfli sənədlərdə qoyulan təməl tam şəkildə aktual olaraq qalır", - Lavrov demişdi.

## İran nədən "narahatdır"?

Beləliklə, bəzi nüanslara aydınlıq gəlir - Zəngəzur dəhlizinin ticari-iqtisadi üstünlükləri bütün beynəlxalq oyunçular tərəfindən etiraf edilsə də, göründüyü hər kəsin "ürəyincə" deyil. Burada da mühüm səbəblər var.



- Ola bilər ki, İran bu layihə nəticəsində Qərbin bölgədə iqtisadi təsir rıçaqlarının artmasından çəkinir. Nəzərə alsaq ki, Qərb tərəfindən ciddi sanksiyalara məruz qalmış İran üçün Ermənistan və Rusiya aktiv bazar xarakteri daşıyır. Zəngəzur dəhlizinin açılması, onun qlobal əməkdaşlıq platformasına çevrilməsi, nəhayət, əlaqələrin güclənməsində açar rolunu oynaması Tehran üçün narahatedicidir.

- Digər bir məsələ isə bölgə dövlətləri arasında siyasi konsensusun formalaşmasıdır. Bu amil mühüm siyasi təsiredici fakt kimi çıxış edir. Azərbaycanın Türkiyə ilə strateji müttəfiq olması, Çin ilə strateji əməkdaşlığa imza atması, digər tərəfdən isə Qərbin bu layihədən istifadə perspektivi İran üçün bəlkə də bəzi suallar yaradır.

- Üçüncü bir məsələ isə Cənub-Şimal marşrutunun Şərq-Qərb marşrutu ilə kəsişməsidir ki, burada da bəzi məsələlər ortaya çıxır - məsələn, Cənub-Şimal xətti vasitəsilə Qərb bazarına çıxış əldə etməyi planlaşdıran bəzi dövlətlərin öz ixrac marşrutlarını dəyişməsi İranın maraqlarına "cavab vermir". Tehran anlayır ki, qovşaq olaraq Azərbaycanın yeni ticari -iqtisadi formatdakı yeri olduqca vacib və ölçüsüzdür. Çünki Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan bu layihə Şərq-Qərb marşrutu üzərində ən qısa yol olmaqla bərabər, bütün kontingentlər üçün effektiv xarakter daşıyır.

Dəhlizin coğrafi imkanlarının genişliyi, infrastruktur baxımından əlverişli olması xüsusi üstünlüklər yaradır. Vurğulandığı kimi, Zəngəzur dəhlizinin ən mühüm üstünlüklərindən biri Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə və Azərbaycan vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.

***S.İSMAYILZADƏ***

# 2025-2029-cu illərə dair strategiya...



## Dünya Bankı Tərəfdaşlıq Çərçivəsi hazırlayır

Baş nazir Əli Əsədovun Dünya Bankı (DB) Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) Avropa üzrə Regional Direktoru İnes Roşanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə Azərbaycanla DB arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud vəziyyəti müzakirə olunub. Dünya Bankının Azərbaycanla qarşıdakı illərə dair strateji əməkdaşlığını nəzərdə tutan Ölkə Tərəfdaşlıq Çərçivəsinin (ÖTÇ) əhəmiyyətinə toxunulub. 2025-2029-cu illəri əhatə edəcək yeni ÖTÇ-nin ikitərəfli əməkdaşlığın daha güclənməsinə, o cümlədən dövlət-özəl tərəfdaşlığının güclənməsi, xarici investisiyaların cəlb olunması, biznesə maliyyə dəstəyinin artırılmasına müsbət təsir edəcəyi vurğulanıb.

## Ölkə Tərəfdaşlıq Çərçivəsi nədir?

Azərbaycan hökuməti ilə Dünya Bankının qarşıdakı illərə dair hədəflərini müəyyənləşdirən Ölkə Tərəfdaşlıq Çərçivəsi Azərbaycanın yeni inkişaf prioritetləri və çağırışlarını əks etdirir. Sənədin əsas istiqamətləri neft və qaz gəlirlərindən asılılığın azaldılması və qeyri-neft mənbələrinin genişləndirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi yolu ilə iqtisadi artımın təmin edilməsi, qeyri-neft gəlirlərinin şaxələndirilməsi ilə gəlirlərin insan kapitalına yönəldilməsi, sosial rifahın yaxşılaşdırılması, həmçinin həssas qrupların əmək bazarına çıxış imkanlarının artırılmasından ibarətdir. Həmçinin, bir sıra sahələrdə hələ də yenidən qurulmasına ehtiyac duyulan infrastrukturun əsaslı bərpası, xüsusilə də sosial infrastruktur təminatlarının yaxşılaşdırılması üçün müasir texnoloji idarəetmənin qurulması sənədin prioritetləri sırasında yer alır.

ÖTÇ-nin digər strateji məqsədi idarəçilik, insan kapitalı və kommunikasiya bağlantılarının əlaqələndirilməsi və insanların ortaq rifahının təşviqindən ibarətdir.

Ümumilikdə, ÖTÇ sənədi Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə hazırlanmış Yol Xəritəsi ilə uyğunlaşdırılmaqla regional və qlobal çağırışlara töhfə verəcək, eləcə də özəl sektorun inkişafını gücləndirmək və özəl kapitalı səfərbər etmək imkanlarını müəyyən edəcək. DB və BMK həmin prioritetləri dəstəkləmək üçün texniki yardım və maliyyə təminatı qismində çıxış edəcək.

DB ilə Azərbaycan arasında əməkdaşlığın yeni gündəliyində duran əsas trendlərdən biri iqlim dəyişikliklərinə qarşı mübarizə, "yaşıl iqtisadiyyat" və "yaşıl enerji" sahəsində yeni layihələrin icrasıdır. ÖTÇ bu baxımdan həmin çağırışların da yerinə yetirilməsində əhəmiyyətli rol oynayacaq. Bu hədəflərin icrasında Dünya Bankı Qrupunun əsas maliyyə strukturlarından biri olan Beynəlxalq Maliyyə Korporasiyasının üzərinə öhdəliklər düşəcək. Korporasiya "yaşıl maliyyə"nin əsas donoru olmaqla bərpa olunan enerji və hidreogen infrastrukturlarını maliyyələşdirəcək. Bir müddət əvvəl BMK ilə Azərbaycan hökuməti arasında dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb və bu sənəd DB-nin ilk "yaşıl sərmayə" layihələrindən biri hesab oluna bilər.

## Bank daha çox "yaşıl sərmayələr" xərcləyəcək

Dünya Bankı "yaşıl maliyyə"nin tətbiqində Azərbaycana institisional dəstək vermək, yeni maliyyə alətlərinin genişlənməsində beynəlxalq təcrübənin mənimsənilməsinə yardım etmək niyyətindədir. Mərkəzi Bankla razılığa əsasən, "yaşıl maliyyə" bazarının inkişaf etdirilməsi istiqamətində müvafiq planlar icra olunacaq.

DB özü isə birbaşa sərmayədar kimi çıxış edərək günəş və hidrogen infrastrukturlarının yenidən qurulmasını maliyyələşdirmək niyyətindədir. Bank Azərbaycanda 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, günəş panelləri infrastrukturunun genişləndirilməsi, "yaşıl hidrogen" istehsalı və digər bərpa olunan sahələrə investisiyaların qoyuluşunda açıq olduğunu bəyan edib. Ümumilikdə, Dünya Bankı 2027-ci ilədək ölkəmizdə 8 külək və Günəş elektrik stansiyalarının qurulması və enerji sisteminə inteqrasiyası məqsədilə maliyyə dəstəyini göstərəcək. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji mənbələrinə sərmayələrin yönəldilməsi, "ağıllı şəhər və ağıllı kənd" konsepsiyalarının tətbiqində "yaşıl texnologiyalar"ın və "yaşıl enerji zonası" layihələrinin icrasında da yaxından iştirak etmək marağını ifadə edib.

DB, həmçinin, bərpa olunan enerjinin ixracında və regional "yaşıl enerji" dəhlizinin yaradılmasında da maliyyə təminatçısı olmaq niyyətini bəyan edib. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinin, növbəti illərdə dənizdə külək enerjisi potensialının artırılması üzrə əməkdaşlığın isə Azərbaycanın "yaşıl enerji"nin təchizatçısı olmaq niyyətini bəyan edib. Bankın TransXəzər "yaşıl enerji" dəhlizinin maliyyə təchizatçısı kimi donorluq imkanları da istisna deyil.

*E.CƏFƏRLİ*

# 4 il öncə...

## Xalqımızın yeni qəhrəmanlıq salnaməsi yazıldı!

Bu ay İkinci Qarabağ müharibəsinin başlamasının 4 ili tamam olur. Təbii ki, Azərbaycan xalqı torpaqlarımızın 30 ilə yaxın müddətdə işğal altında qalması ilə barışa bilməzdi, gec-tez ədaləti bərpa edəcək, öz tarixi torpaqlarına qovuşacaqdı. Nəhayət, torpaq həsrəti ilə alışıb yanan hər bir azərbaycanlının həyəcanla gözlədiyi o gün yetişdi, 2020-ci ilin 27 sentyabrı hər birimiz üçün unudulmaz tarix oldu. O tarix ki, xalqımızın yeni qəhrəmanlıq salnaməsinin başlanğıcı hesab edilir.

Ümumiyyətlə, Vətən müharibəsinin başa çatmasından ötən 4 ilə yaxın müddət istər hərbi, istərsə də diplomatik müstəvidə Azərbaycanın uğurları ilə əlamətdardır. Bu dövrün ən böyük hərbi-siyasi hadisəsi isə Qarabağda milli suverenliyimizin tam bərpa edilməsi oldu. Sözdən anlamayan, ölkəmizin qanunlarına tabe olmaq istəməyən ermənilərin bu dəfə Azərbaycanın şərtlərinə əməl etməkdən başqa çarələri qalmadı. Prezident İlham Əliyevin göstərişi ilə 2023-cü il sentyabrın 19-da cəmi 23 saat ərzində erməni separatizmi darmadağın edildi, erməni təəssübkeşlərinin çirkin planları iflasa uğradı.

**Dünya hərb tarixində yenilik**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, İkinci Qarabağ müharibəsində istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və ən məşhur hərbi institutlar tərəfindən araşdırılmaqla ətraflı şəkildə öyrənilməkdədir. O, qeyd edib ki, bütün bunlar Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun gücündən, özünəməxsus bacarıq və səriştəsindən xəbər verir: "44 günlük Vətən müharibəsində qazandığı qələbə ilə öz gücünü bütün dünyaya sübut edən Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bu gün Azərbaycanın regionda yaratdığı həmin reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Azərbaycanın qazandığı ədalətli qələbənin bölgədə yaratdığı durum regionda davamlı sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət edir və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır.

Möhtəşəm qələbəmizdən sonra ölkəmizdə yeni dövr başlayıb. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri uğurla icra olunur. Həyata keçirilən abadlıq-quruculuq işləri onu deməyə əsas verir ki, erməni vəhşiliyinin qurbanı olan şəhərlərimiz, qəsəbələrimiz və tarixi abidələrimiz yenidən bərpa olunur, azad Qarabağımıza yeni nəfəs gəlir".

**Onlar hər zaman qəlbimizdə yaşayacaq**

Ə.Verdiyev qeyd edib ki, Ermənistan həm işğal, həm də İkinci Qarabağ müharibəsi dövründə törətdiyi cinayətlərə görə cavab verməli olacaq: "Azərbaycan xalqına qarşı törədilən erməni cinayətləri ilə bağlı bütün materiallar



Avropa İnsan Hüquqları Məhkəməsi təqdim edilib. Ümid edirik ki, Ermənistanın bu cinayətləri beynəlxalq məhkəmələrdə ciddi araşdırılacaq və ədalətli qərar qəbul ediləcək.

Azərbaycan xalqı ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda edən, bizə bu Zəfəri yaşadan Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacaq. Onların əziz xatirəsi hər zaman bizim qəlbimizdə yaşayacaq".

**Təmkinli, düşünülmüş və praqmatik siyasət...**

Ekspertin sözlərinə görə, dönüb tarixə baxarkən, ötən 20 ildə getdiyimiz inkişaf yoluna nəzər salanda bir daha görürük ki, İlham Əliyev bu illər ərzində Azərbaycanın iqtisadi yüksəlişini təmin etməklə, respublikamızın beynəlxalq mövqelərini gücləndirməklə, onu regionda və dünyada söz sahibi etməklə, qlobal müstəvidə hücum diplomatiyası yürüdərək erməni saxtakarlıqlarını ifşa edib: "Bir sözlə, ölkə başçısı Qarabağda erməni separatizminə son qoyulması üçün etibarlı təməllər formalaşdırıb. Bu mənada İlham Əliyevin "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" sözləri də məhz bu reallıqlara əsaslanaraq, dövlət başçısının milli maraqlarımızın təmin edilməsi istiqamətində həyata keçirdiyi təmkinli, düşünülmüş və praqmatik siyasətinin ifadəsidir.

Artıq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri isə qalibiyyətimizi bütün dünyaya bəyan edir. Bu uğurlarımızın memarı olan Prezident İlham Əliyevin əzmkar siyasəti ilə xalqımız həm də "Böyük qayıdış"ın təntənəsini ve sevincini yaşayır".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti üzrə hazırlanmışdır**

# Regionda Aİ missiyasına ehtiyac yoxdur

## Azərbaycanla Ermənistan kənar vasitəçilər olmadan məsələləri həll etməkdədir

Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının gerçək məqsədi regionda sülhə töhfə vermək deyil. Ötən dövrdə baş verən proseslər göstərdi ki, bu missiya mülki deyil, hərbi-kəşfiyyat xarakteri daşıyır. Missiya üzvlərinin əvvəllər hərbi-təhlükəsizlik sahəsində çalışmaları da bunu təsdiqləyir. Digər tərəfdən, regiondakı ölkələr, xüsusilə Rusiya rəsmiləri dəfələrlə Aİ missiyasının regionda kəşfiyyat məqsədilə yerləşdiyini dəfələrlə bəyan ediblər. Bütün bunlar, Azərbaycanın bu missiyanın Ermənistanda yerləşdirilməsinə etiraz etməsinin nə qədər haqlı olduğunu isbatlayır.

## Missiya kəşfiyyat işləri ilə məşğuldur

Yeri gəlmişkən, bugünlərdə Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının rəhbəri Sarkis Xandanyan deyib ki, Azərbaycanla sərhəddəki vəziyyətə nəzarət etmək üçün Avropa İttifaqının mülki müşahidə missiyasının Ermənistan ərazisində olması "Bakının deyil, sırf Brüssel və İrəvanın işidir". Onun ifadəsinə görə, "Avropa İttifaqı müşahidəçilərinin Ermənistanda olması sırf Ermənistanla Avropa İttifaqı arasında müzakirə olunan məsələdir. Müşahidəçilər Ermənistan ərazisində yerləşdirilib və sərhədi Ermənistan tərəfdən izləyirlər. Müvafiq olaraq, missiya ilə bağlı yalnız bu tərəflər qərar verməlidir".

Ermənistanın xarici işlər nazirinin müavini Vahan Kostanyan isə bugünlərdə Praqada keçirilən "Ermənistan və Aİ" mövzusunda tədbirdə monitorinq missiyasının regionda təhlükəsizlik və sabitliyin təmin edilməsində rolunu "yüksək qiymətləndirib". Bütün bunlar bir daha təsdiqləyir ki, Aİ missiyasının bu addımlarının əsas səbəbkarı rəsmi İrəvandır. Ermənistan hakimiyyəti bu cür addımları ilə regionda prosesləri öz xeyrinə dəyişməyi qarşısına məqsəd qoymuşdu. Belə hallar bölgədə sülhün əldə edilməsinə mane ol-




maqdan başqa bir şey deyil. Bu baxımdan, Aİ missiyasının Ermənistanda gücləndirilməsi Fransanın və Avropadakı digər ermənipərəst qüvvələrin növbəti siyasi oyunudur. Görünən odur ki, dünyada baş verən proseslər fonunda Ermənistan "manevrlər" etməyə çalışır, amma heç nəyə nail ola bilmir. Aİ missiyası isə kəşfiyyatla məşğul olmaqdadır.

## Uğursuz "binokl diplomatiyası"

Xatırladaq ki, Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində mülki monitorinq missiyası 2022-ci il oktyabrın 17-dən fəaliyyət göstərir. Bununla bağlı liderlərin Praqa görüşündə razılıq əldə olunmuşdu. Razılığa əsasən 40 nəfərdən ibarət missiya iki ay ərzində Ermənistanda fəaliyyət göstərməli idi. Lakin sonradan Azərbaycanın razılığı olmadan Ermənistanla Aİ bu missiyanın fəaliyyətinin uzadılmasına və genişləndirilməsinə qərar verdilər. Hazırda missiya üzvlərinin sayı 209 nəfərədək artırılıb. Bundan əlavə, ötən ilin sonlarında Yeğeqnadzorda da (Dərələyəz mahalı) Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının qərargahının açılış mərasimi oldu. Açılış mərasimində missiyanın rəhbəri Markus Ritter çıxış edərək bildirmişdi ki, Aİ-nin Ermənistandakı missiyası fəaliyyətə başlayan zaman iki daimi işçisi və üç sahə ofisi olub. Lakin sonradan Aİ-nin 23 dövlətindən əlavə nümayəndələr göndərilib. Missiya Qafan, Gorus, Cermuk, İcevanda və digər yerlərdə də özünə ofislər açıb.

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanatlar verərək bildirib ki, sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsinə çevrilib. Missiyanın mahiyyət etibarilə müxtəlif Avropa rəsmilərinin, habelə qeyri-rəsmi nümayəndə heyətlərinin sərhəd bölgələrinə səfərlərinin təşkilinə töhfə verən "binokl diplomatiyası"nın agentinə çevrildiyi Aİ tərəfinin diqqətinə çatdırılıb.

Bəs Aİ-nin missiyası sərhəddə konkret hansı işlərlə məşğul olub? O, sülhə töhfə verə bilibmi, yaxud da Ermənistanın hərbi təxribatlarının qarşını alıbmı? Əlbəttə, yox. Missiya üzvləri ötən dövrdə yalnız binoklla sərhəddən Azərbaycana baxmaqla kifayətlənib, hərdən də bir sıra ölkələrdən gələn rəsmilər, eləcə də diplomatlarla birlikdə uzaqda Azərbaycan ərazilərini seyr etməklə məşğul olublar. Ötən dövrdə erməni tərəfi bir sıra hərbi təxribatlar törədib ki, Aİ missiyası o zaman ortalıqda görünməyib. Yəni onlar erməni təxribatının qarşısını almaq üçün heç bir addım atmayıblar.

## Tərəflər sərhədlərin demarkasiyasını vasitəçisiz reallaşdıra bilirsə...

Baş verənlər onu deməyə əsas verir ki, həqiqətən də, regionda belə bir missiyaya ehtiyac yoxdur. Çünki artıq Azərbaycan və Ermənistan birbaşa danışıqlara üstünlük verir. Eləcə də, tərəflər arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə hökumət komissiyalarının birgə işi haqqında sənədin imzalanması Aİ missiyasının Ermənistanda mövcudluğunu davam etdirməsinə lüzum olmadığını göstərir. Üstəlik, bugünlərdə Ermənistan hökuməti Azərbaycanla sərhədin delimitasiyası üzrə komissiyalar haqqında Əsasnaməni də təsdiqləyib.

Əldə edilən razılığa uyğun olaraq may ayında Qazaxın işğal altında olan 4 kəndi Azərbaycana qaytarılıb. Belə ki, ikitərəfli dialoqun nəticəsi olaraq Qazax rayonunun Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri ölkəmizə təhvil verilib. Mayın 24-də qeyd olunan kəndlərin ərazisi Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb. Bütövlükdə, hazırda hər iki tərəf hansısa kənar vasitəçi olmadan sərhədlərin delimitasiya və demarkasiyası işlərini davam etdirirlər. Bu işlərin nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib.

Bütün bunlar onu göstərir ki, Azərbaycanla Ermənistan arasında məsələlərin həllində üçüncü qüvvələrə ehtiyac yoxdur. Bu baxımdan, Aİ-nin monitorinq missiyasına da hər hansı ehtiyac duyulmur.

*Nardar BAYRAMLI*




# Bakı Təşəbbüs Qrupu beynəlxalq qurumlara rəsmi məktub ünvanlayıb

Bakı Təşəbbüs Qrupu 2024-cü il sentyabrın 3-də Bakıda keçirilmiş "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın nəticələrinə əsaslanaraq Birləşmiş Millətlər Təşkilatının Baş katibinə, Qoşulmama Hərəkatının sədrinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, Avropa Komissiyasının sədrinə, Ərəb Liqasının Baş katibinə və Afrika İttifaqının sədrinə rəsmi məktub ünvanlayıb.

Məktubda Fransa tərəfindən Qəmər Adaları İttifaqına aid olan Mayot adasının qanunsuz işğalı ilə bağlı dərin narahatlıq ifadə edilib və bunun beynəlxalq hüququn pozuntusu olduğu bildirilib.

Məktubda qeyd olunur ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasından sui-istifadə edərək beynəlxalq hüququn bu pozuntusunun həllinə yönəlik təşəbbüslərə mane olur. Həmçinin Fransa BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Liqası və Afrika İttifaqı kimi beynəlxalq təşkilatların qəbul etdiyi müvafiq qətnamələri heçə sayır.

"Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın əsas nəticələrindən biri olan Yekun Bəyanat Birləşmiş Millətlər Təşkilatının Baş katibinə, Qoşulmama Hərəkatının sədrinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, Avropa Komissiyasının sədrinə, Ərəb Liqasının Baş katibinə və Afrika İttifaqının sədrinə təqdim olunub. Bundan əlavə, yuxarıda qeyd olunan təşkilatların rəhbərlərinə Bakı Təşəbbüs Qrupu tərəfindən nəşr edilmiş "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" adlı broşür da təqdim olunub.

Bakı Təşəbbüs Qrupu, eyni zamanda, məktubunda Mayot adasının işğalı ilə bağlı beynəlxalq konfrans keçirməyə və işğalın dayandırılması, beynəlxalq hüququn qorunması məqsədilə bu qurumların daxilində müvafiq işçi qruplarının yaradılmasını təşviq etməyə çağırıb.

Bakı Təşəbbüs Qrupu beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq çərçivəsində bu məsələnin beynəlxalq hüquq əsasında tezliklə həll olunacağına əminliyini ifadə edib.

# "Sabit inkişaf, güclü iqtisadiyyat"...

## Türkiyə iqtisadiyyatın yeni yol xəritəsini elan edib

Türkiyənin vitse-prezidenti Cevdət Yılmaz bildirib ki, ölkənin 2025-2027-ci illəri əhatə edən Ortamüddətli İnkişaf Proqramı hazırlanıb. Sənəd makroiqtisadi və maliyyə sabitliyinin qorunması, xarici mühitdən gələn təsirlərin neytrallaşdırılması, uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, yeni reallıqlara uyğun gəlir və fiskal çərçivənin formalaşdırılması, inflyasiyanın sabit həddə qədər endirilməsi və digər makrohədəflər nəzərdə tutulub. C.Yılmaz iqtisadi sahədə milli prioritetlərin əsas istiqamətlərindən biri kimi yerli və xarici investisiyaların iqtisadiyyata axınını sürətləndirilməsinin və milli tədiyyə balansının artması hesabına daxili qiymət sabitliyinin möhkəmləndirilməsinin yer aldığını bildirib.

### Biznesə dəstək, investorlar üçün yeni güzəştlər...

Maliyyə naziri Məhmət Şimşək yeni strateji yol xəritəsi çərçivəsində sahibkarlar üçün güzəştlərin, aztəminatlı əhali üçün isə sosial yardımların yenidən strukturlaşdırılacağını və müasir sosial proqram tətbiq olunacağını bildirib. Ölkədə iş yerləri ilə stimulların genişləndirilməsi məqsədilə əmək bazarı çevik təminat əsasında qurulacaq, əmək müqavilələrinin bağlanma mexanizmləri şirkətlərin müxtəlif ehtiyaclarından asılı olaraq fərqləndiriləcək, müddətli əmək müqavilələrinin bağlanması asanlaşdırılacaq. Əmək haqqının müəyyən edilməsi zamanı iqtisadi tarazlıqları və əmək məhsuldarlığındakı inkişafları izləmək üçün mexanizmlər hazırlanacaq, işsizlikdən sığortadan faydalanan şəxslərin aktiv əmək bazarı proqramlarında iştirakı təşviq ediləcək.

Vergi tətilləri də makroiqtisadi siyasətin əsas istiqamətləri kimi diqqətdə saxlanılacaq, differensial vergi mexanizmi təkmilləşdiriləcək. Biznesin qeydiyyatı ilə bağlı vaxt və rüsumlar, inzibatçılıq təkmilləşdiriləcək. Şirkətin açılması, bağlanması və ya birləşməsinin xərcləri və vaxtları azalacaq, lisenziya və icazə sistemi sadələşdiriləcək, Gənc biznesə dəstək tədbirlərinin yeni modelləri qurulacaq, xüsusilə gənclər arasında sahibkarlıq təşviq ediləcək, gənc sahibkarlara kapital dəstəyi göstəriləcək, vergilərin azaldılması proqramları həyata keçiriləcək.

Türkiyənin investisiya siyasəti üzrə də müasir baxış vizyonu formalaşdırılacaq. Davamlı iqtisadi inkişafa nail olmaq üçün beynəlxalq investisiya yatırımları artırılacaq, xarici sərmayəçilərin axınını təşviq etmək üçün gömrük və ticarət rejimində prefernsial sazişlərin əhatəsi artırılacaq. Strategiyaya əsasən, dövlət-özəl sektorun birgə koordinasiyasının gücləndirilməsi və mühüm infrastruktur layihələrinə hər iki tərəfin birgə sərmayə yatırması planlaşdırılır.

### Bacarıqlı insan, sağlam cəmiyyət...

Büdcə-fiskal siyasətdə də yeniliklər gözlənilir, əsas məqam dövlət xərclərinin səmərəlilik və effektivliyə əsaslandırılmasıdır ki, bu da şəffaflıq və hesabatlılığın möhkəmlənməsinə xidmət edir. Büdcə vəsaitləri ilə yanaşı, müasir innovasiya və rəqəmsal layihələrə sərmayə qoyuluşları üçün orta binesin imkanları səfərbər olunacaq.

Türkiyənin inkişaf strategiyasında aqrar sahəyə dəstəyin daha da artırılması da nəzərdə tutulur. Kənd təsərrüfatında son illərdəki azalmanın yenidən canlandırılması, fermerlərə sığorta təminatının yaxşılaşdırılması və məqsədli subsidiyaların artırılması, eləcə də heyvandarlıq sahəsində dövlətin maliyyə dəstəyinin gücləndirilməsi milli prioritetlərdən birini təşkil edəcək. Habelə kənd təsərrüfatına yararlı torpaqların dövriyyəyə cəlb edilməsi, aqrar sahədə innovasiyalara açıq yeni mütəxəssislərin sayının artırılması üçün davamlı tədbirlər görüləcək.

Türkiyənin yeni yol xəritəsi hesab edilən inkişaf proqramı həmçinin, "Sabit inkişaf, güclü iqtisadiyyat", "Yaşıl və rəqəmsal transformasiya ilə rəqabətədavamlı istehsal", "Təbii fəlakətlərə davamlı yaşayış sahələri, davamlı ətraf mühit" və "Ədalətə əsaslanan demokratik, yaxşı idarəçilik", "Bacarıqlı insan, möhkəm ailə, sağlam cəmiyyət" kimi milli hədəfləri əks etdirir.

### İnflyasiyaya qarşı koordinasiyalı fəaliyyət gücləndiriləcək

Türkiyənin iqtisadi-sosial həyatında ən böyük problemlərdən biri inflyasiyadır. Ona görə də, əsas hədəf prioritetlərindən biri kimi inflyasiyanın azaldılması istiqamətində hökumətin koordinasiyalı fəaliyyətinin artırılması nəzərdə tutulur. Ortamüddətli inkişaf proqramı çərçivəsində müəyyən edilmiş anti-inflyasiya tədbirlərinə əsasən, qiymət indeksinin azaldılması istiqamətində məqsədli addımlar atılacaq və inflyasiyada əsas yer tutan idxal faktorunun təsirinin minimallaşdırılması üçün yerli ixracın gücünün artırılmasına təşviqlər veriləcək. Həmçinin, istehlak bazarında spekulyasiyalar və süni qiymət artımına qarşı mübarizə tədbirləri gücləndiriləcək.

Qeyd edək ki, qardaş ölkədə qiymət artımlarında və ölkənin milli valyutasının ucuzlaşmasında yerli və xarici bank-maliyyə təmsilçilərinin də rolu az deyil. R.T. Ərdoğanın "təpəçilər" (sələmçilər) dediyi qrupun Türk Lirəsinin ucuzlaşması üçün məqsədli şəkildə dollar ajiotajı yaratdığına dair kifayət qədər sübutlar var. Türkiyə Mərkəzi Bankının (TMB) dollar-TL məzənnəsini müəyyən etdikdən sonra "qara bazarda" 20-25 faizlə valyuta satışları da buna dəlalət edir. Bazar iştirakçıları, biznes qrupları süni dollar ajiotajı mühitində daha çox dollar almaq istəyir ki, bu da tələbi artırır, banklar və valyuta birjası dollar və avroya tələbi tam qarşılaya bilmədiyindən kiçik və orta biznesin bir qismi "qara bazar"a üz tutmalı olurlar. Bazardakı həmin spekulyatorlar da məqsədli şəkildə sələmçilərin sayəsində TL-nin dəyərsizləşməsinə səbəb olur, inflyasiya dərinləşir.

Türkiyə Mərkəzi Bankı baş verən spekulyativ simulyasiyalara qarşı tədbirlərin və anti-inflyasiya həmlələrində bütün iqtisadi-maliyyə komandasının fəaliyyətinə koordinasiyalı nəzarətin artırılacağını bəyan edib.



### Türkiyənin gücü iqtisadi hədəflərə çatmağa imkan verir...

Türkiyə mövcud iqtisadi çətinlikləri dəf etməyə qadirdir və ölkə sənayesinin potensialı ixracı və tədiyyə balansını möhkəmləndirməyə imkan verir. Son 20 ildə real ifadədə 3,4 dəfə böyüyən iqtisadiyyatın dəyər gücü, yəni ümumi daxili məhsul (ÜDM) 314 milyard dollardan 1 trilyon dollara çatmaqdadır. 20 il əvvəl milli ixracın əsas payı aqrar və yüngül sənaye, xidmət sektorları idisə, hazırda Türkiyə güclü sənaye dövlətidir, hərbi, avtomobil sənayesində xüsusi yüksək sıçrayışlar müşahidə edilir. 2024-cü ildə milli müdafiə və avtomobil sənayesinin ixracda xüsusi çəkisinin daha da artacağı gözlənilir. Eyni zamanda, kəşf edilmiş qaz yataqlarında hasilat işlərinə başlanılması və qaz sənayesinin inkişafı, eləcə də neft hasilatı rayonlarında yanacaq istehsalı-emalı infrastrukturlarının qurulması, turizm sektorunun milli gəlirdə payının artması, tətbiq olunan vergi güzəştlərinin biznesin yaratdığı əlavə dəyərdə çəkisinin yüksəlməsi, digər sahələrdə inkişaf templəri Türkiyənin qarşıya qoyduğu hədəfə çatmağa zəmin yaradır. 2024-cü ilin birinci yarısında Türkiyə iqtisadiyyatı 5,8 faiz artıb, ilin sonunda artımın 8 faizə çatacağı gözlənilir. Bütün bunlar ölkənin milli iqtisadi inkişaf hədəflərinə çatmasına dərin zəminlər yaradır..

**E.CƏFƏRLİ**

# Metsolanın korrupsiya "macəraları"

**Özünü insan hüquqlarının və demokratiyanın "keşikçisi" kimi təqdim edən Avropa Parlamentinin əslində korrupsiya yuvası olması heç kimə sirr deyil. Bu barədə Avropa mətbuatı da dəfələrlə məlumatlar yayıb, qurumun rəhbər şəxsləri, eləcə də deputatları istintaqa cəlb olunublar.**

## Əri Roberta Metsolanın statusundan sui-istifadə edir

Qeyd edək ki, Avropa Parlamentində deputatlar bir aydan sonra yenidən fəaliyyətə başlayacaqlar. Avropa Parlamentinin yeni sədri üçün bu başlanğıcın mürəkkəb olacağı bildirilir. "Politico" nəşrinin yazdığına görə, müxtəlif rəsmi səfərlərdə Ukko Metsola Avropa Parlamentinin sədri olan həyat yoldaşı Roberta Metsolanı müşayiət edib. Hətta Brüsseldəki evlərində təşkil olunmuş bütün qəbullarda o da iştirak edib. Ukko Metsola dünyanın ikinci ən böyük kruiz gəmi şirkəti olan "Royal Caribean" qrupunun əsas Avropa lobbiçisi olub. "Politico" bildirir ki, U.Metsola heç bir qaydanı pozmasa da, bəzi avropalı deputatlar onun tərəfindən şəffaflığın olmamasını bildiriblər. Avropalı deputatlar onun Avropa Parlamentinin sədri olan arvadının nüfuzundan istifadə edərək, şirkətinin ekoloji keçidini maliyyələşdirmək üçün Avropa fondlarından istifadə etməyə çalışdığını deyirlər.

"Politico" tərəfindən sorğusual edilən Roberta Metsolanın ətrafındakı insanlar, eləcə də əri Ukko Metsola hər hansı maraq toquşması olduğunu inkar ediblər. Metsolalar iki fəaliyyətləri arasında böyük sədd qurduqlarını deyiblər. Ancaq hələ də "Qatargate" tərəfindən travmaya məruz qalan Avropa Parlamentində Roberta Metsolanın işə başlayanda gözlənilməz risklərlə üzləşəcəyi bildirilir.

Ümumiyyətlə, adı illərdir ki, müxtəlif korrupsiya qalmaqallarında hallanan Avropa Parlamenti vaxtaşırı olaraq bu mövzuda gündəmə gəlir. Hələ bu ilin may ayında Belçika federal prokurorunun bəyanatına görə, polis Avropa Parlamentində "Russiagate" işi ilə bağlı axtarış aparıb. Brüsseldəki iqamətgahda, eləcə də Avropa Parlamentinin Strasburq və Brüsseldəki ofislərində aparılan axtarışların motivi də bəlli olub - bu axtarışlar "Avropanın Səsi" internet saytında Rusiya təbliğatını daha da irəlilətmək üçün Avropa Parlamentinin deputatlarına müraciət edildiyi və onlara pul ödənildiyi iddia edilən "Russiagate işi" ilə bağlı idi. Avropa Parlamentinin müvafiq əməkdaşının bu məsələdə rol oynadığına dair şübhələr var idi.

## AP korrupsiya yuvasıdır

Bu kimi ittihamlar və iddialar Avropa Parlamentinə qarşı ilk dəfə sanksiyalaşdırılmır. Son bir neçə ildə AP ilə bağlı bir sıra korrupsiya, rüşvət, erməni lobbisinin dəstəyi və stimullaşdırılması ilə bağlı faktlar ortaya çıxıb. Məsələn, 2022-ci ilin dekabrında AP olduqca ağır bir korrupsiya qalmaqalı ilə çalxalandı. Dünyada beynəlxalq anti-korrupsiya gününün qeyd edildiyi bir tarixdə - dekabrın 9-da Belçika polisi AP-də fəaliyyət göstərən korrupsiya şəbəkəsini ifşa edərək onun bir neçə üzvünü həbs etdi. Saxlanılanlar arasında AP-nin vitse-prezidenti, yunanıstanlı deputat Eva Kailinin olması isə sensasiya idi. Belçikanın federal müstəntiqləri Kaili də daxil olmaqla, saxlanılanları rüşvət qismində külli miqdarda pul və müxtəlif bahalı hədiyyələr almaqla körfəz ölkələrindən birinin (Qərb mediası daha sonra bu ölkənin Qətər olduğu açıqladı) xeyrinə qanunsuz lobbiçilik etməkdə, AP-də qəbul edilən qərarlara təsir etməyə çalışmaqda ittiham etdi. İşlə əlaqədar Brüsseldəki 16 müxtəlif nöqtədə həyata keçirilmiş axtarışlar nəticəsində 600 min avro nağd pul aşkarlandı. Bir həftə ərzində aparılan axtarışlar zamanı isə çamadan və portfellərdə 1,5 milyon avrodan çox nağd pul tapıldı. Müstəntiqlər bildirdilər ki, sözügedən korrupsiya şəbəkəsi bir neçə aydır, həmin Körfəz ölkəsinin xeyrinə AP-nin müxtəlif iqtisadi və siyasi qərarlarına təsir etməyə çalışıb.

2023-cü ilin əvvəlində isə AP ilə bağlı daha bir fakt üzə çıxdı - belə ki, Avropa Parlamentinin spikerinin vəzifələrindən biri bu təşkilatın üzvlərinin bahalı otellərdə, dəbdəbəli restoranlarda keçirdikləri vaxt, təyyarələrdə biznes-salonlarda uçuşlar, şou proqramlarına və idman yarışlarına VIP-lojalarda tamaşa etmək xərclərinin kənar şəxslər tərəfindən ödənilməsi barədə təhqiqat aparmaq və bu barədə hesabatlar təqdim etməmiş Avroparlament deputatlarının cəzalandırılması haqda qərar qəbul etməkdən ibarətdir. Almaniya mediasının məlumatında isə bildirilirdi ki, AP sədri Roberta Metsolanın əri ilə birlikdə Fransanın təmtəraqlı otelində keçirdiyi gecənin xərcinin Şərab İstehsalçıları Assosiasiyası tərəfindən ödənilməsi haqda məlumat verməyib. Bu barədə söz-söhbət çox olsa da, nəticədə spikerə heç bir sanksiya tətbiq edilmədi. Onun Avropa Parlamentinin spikeri vəzifəsində işi üçün şərab istehsalının nə dərəcədə zəruri olması aydın olmasa da, məsələdə spikerin ərinin rolu, ümumiyyətlə, tapmacaya çevrildi. Təbii ki, mühüm qalmaqallardan biri kimi yadda qalan hadisə qısa zamanda "ört-basdır edildi".

## Metsola yenidən sədr seçilsə də...

Metsola ilə bağlı qalmaqaldan cəmisi günlər ötdükdə - 2023-cü ilin martın sonu, aprelin əvvəlində isə Belçika polisi və alman müstəntiqləri Almaniyada başladılan istintaq çərçivəsində sağ mərkəzçi Avropa Xalq Partiyasının Brüsseldəki qərargahında yoxlama apardılar. Hansı ki, Avropa Xalq Partiyası Avropa Parlamentində ən böyük fraksiya sayılır və üzvləri ən çox yerə sahibdirlər. İstintaqla bağlı əlavə məlumat verilməsə də, "Thueringer Allgemeine" qəzeti mənbələrə istinadən bildirmişdi ki, yoxlama Almaniya Xristian Demokratlar Partiyasının lideri Mario Foyqtun 2019-cu il Avropa seçkilərində EPP-nin seçki kampaniyasındakı korrupsiya qalmaqalı ilə əlaqədardır. İstintaq Foyqtun kampaniya zamanı müqavilə bağladığı bir internet şirkətindən mükafat alması ilə bağlı iddiaları araşdırır. Maraqlıdır ki, Avropa Xalq Partiyasının üzvləri arasında Avropa Parlamentinin sədri Robert Metsola da yer alır.



Xatırladaq ki, maltalı siyasətçi Roberta Metsola bu ilin iyul ayında ikinci müddətə Avropa Parlamentinin sədri seçilib. Metsolanın namizədliyinə 562 avropalı parlamentari səs verib. Bütün hallarda baş verənlər Avropa Parlamentinin korrupsiya yuvası olaraq qalmaqda davam etdiyini göstərir. İkinci dönəmdə də Metsolanın yeni "macəraları"nın baş verəcəyi istisna deyil.

**N.BAYRAMLI**

# Bakı Teatr Məktəbinin ilk məzunu...



## Xalq artisti Soltan Dadaşovun anım günüdür

7 sentyabr Azərbaycan incəsənətində, mədəniyyət tarixində öz xüsusi yeri olan Xalq artisti Soltan Dadaşovun anım günüdür.

Soltan Dadaşov 1906-cı il mayın 27-də Bakıda doğulub. Kiçik yaşlarında ruhani təhsili alan Soltanın fərasət və diribaşlığına, oxumağa həvəsli olmasına görə atası türk-rus məktəbinə verib. Qabaqcıl şagird kimi müəllimlərin sevimlisi olan yeniyetmə Soltan buradan da Realnı məktəbə keçib. Gənc yaşlarından klassik şairlərdən Məhəmməd Füzulinin, Molla Pənah Vaqifin, Seyid Əzim Şirvaninin, Qasım bəy Zakirin ədəbi irsini dərindən mənimsəyən Soltan bəlağətli əruzun əlvan və mürəkkəb vəznlərini dərindən bilən qiraət xiridarı kimi tamaşaçı-dinləyicilərin rəğbətini qazanmışdı. Düşüncə tərzinə, idrak və təfəkkürünə görə həmyaşıdlarından irəli gedən Soltan Dadaşov məktəbdə dram dərnəyi yaratmışdı. O, şagird dostları ilə Mirzə Fətəli Axundzadənin komediyalarından, Nəcəf bəy Vəzirovun məsxərələrindən, Haşım bəy Vəzirovun məzhəkə və vodevillərindən parçalar seçib tamaşalar hazırlayar, özü də bu səhnələrdə həvəskar aktyor kimi çıxış edərdi.

1920-1921-ci illərdə Soltan Dadaşov Bakıdakı Mərkəzi fəhlə klubunun dram dərnəyinin fəallarından olub. Sovet hökumətinin təşkil etdiyi təbliğat və təşviqat briqadalarının fəal üzvü kimi Azərbaycanın rayonlarında aktyor, müğənni kimi çıxışlar edib. 1923-cü ildə milli səhnə mədəniyyətimizi peşəkar ixtisaslı kadrlarla təmin etmək məqsədilə Bakı Teatr Məktəbi (Texnikumu) açılıb. Soltan Dadaşov həmin məktəbin ilk məzunlarından olub və 1924-cü ildə həmçinin Milli Dram Teatrının yardım heyətində aktyorluq edib. Texnikumda oxuduğu illərdə teatrın səhnəsində tamaşaya qoyulmuş bir sıra əsərlərdə epizod rollar oynayıb. Fərasətli tələbə olduğuna, Bakı Teatr Məktəbini əla qiymətlərlə bitirdiyinə, rus dilində sərbəst danışdığına, həssas musiqi duyumuna, Milli Dram Teatrının səhnəsindəki sərbəst yaradıcılıq cəhdlərinə görə və ən əsası, sənət müəllimi Aleksandr Tuqanovun zəmanəti ilə Azərbaycan Respublikasının Xalq Maarif Komissarlığı (XMK) 1927-ci ildə Soltan Dadaşovu Moskvada təhsilini davam etdirməyə göndərib. Mərkəzi Teatr Texnikumunda dörd il təhsil alan Soltan Dadaşov 1931-ci ildə Bakıya musiqili teatr rejissoru ixtisası ilə qayıdıb. O, Moskvada Aleksey Popov, Boris Zaxava, Andrey Petrovski, Boris Suşkeviç kimi məşhur pedaqoqlardan sənət ixtisası dərsi almış, rejissuranın estetik və fəlsəfi əsaslarına bacarıqla yiyələnmişdi.

Təhsilini bitirib təyinatla Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamına göndərilən Soltan Dadaşov opera teatrına quruluşçu rejissor təyin olunub. O, opera teatrında çalışan ilk peşəkar təhsil almış rejissor idi və buna görə də elə ilk işindən onun quruluşları əzəmətli vüsətinə, zəngin koloritinə və tamaşaların səhnə həllinin bəstəkarların partiturası ilə uyğun gəlməsinə görə seçilirdi. S.Dadaşov milli muğam operalarımızı monumental səpkidə hazırlamağa cəhd göstərən və bu sahədə dəyərli nailiyyətlər qazanan, bugünədək davam edən ənənənin təməlini qoyan cəsarətli, yaradıcı və novator rejissor idi. Hansısa klassik operanın əsas partiyalarını azərbaycanca oxuyan vokal ustalarını təkidlə aktyorluq sənətinin incəliklərinə yiyələnməyə, obrazın psixoloji-estetik, sosial-fəlsəfi mahiyyətini ifadəli cizgilərlə tamaşaçılara çatdırmağa təhrik edən ilk milli opera rejissoru da məhz S.Dadaşov olub. O, Opera və Balet Teatrında otuz səkkiz illik rejissorluğu dövründə Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" ("Məşədi İbad"), "Arşın mal alan", "Leyli və Məcnun" (bir neçə quruluşda), "Cəbhə və vətən", "Əsli və Kərəm", Müslüm Maqomayevin "Nərgiz", "Şah İsmayıl" (bir neçə quruluşda), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (iki quruluşda), Cüzeppe Verdinin "Riqoletto", "Traviata", Soltan Hacıbəyovun "Gülşən" (balet), İbrahimov Məmmədovun "Tülkü və Alabaş", Rujero Leonkovallonun "Məzhəkəçilər" əsərlərinin quruluşçu rejissoru olub.

Aşqabad Dövlət Azərbaycan Teatrı "Dram və Opera Teatrı" adı ilə fəaliyyət göstərdiyi vaxtlarda Soltan Dadaşov həmin kollektivdə tamaşa hazırlamağa dəvət edilib. Rejissor 1937-ci ilin dekabrında Aşqabad teatrında Müslüm Maqomayevin "Şah İsmayıl" operasının məşqlərinə başlayıb. Operanın premyerası 1938-ci il yanvarın 16-da göstərilərək, təntənəli keçən tamaşa sənət ocağının yaradıcılığında hadisə kimi qiymətləndirilib. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında (ongünlüyündə) "Arşın mal alan" operettasının böyük uğurundan sonra Bakıda müstəqil Musiqili Komediya Teatrı yaratmaq barədə dövlətin qərarı oldu. Teatrın ilk işi kimi Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" operettası seçildi. Operettanın rejissorluğu Soltan Dadaşova tapşırıldı və əsərin ilk tamaşası 1938-ci il mayın 30-da "Rote Fane" parkının (İndiki "Nizami" parkı) möhtəşəm yay salonunda göstərildi. Soltan Dadaşov 1941-ci il mayın 21-də Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında monumental, etno-mədəni xalq mərasim oyun-tamaşasını tamaşaçılara təqdim etdi. Filarmoniyada göstərilən bu tamaşa milli musiqi folkloru xəzinəmizin poetik vüsətini, etnogenezislə bağlı estetik-psixoloji məziyyətlərini böyük ustalıqla səhnədə təcəssüm etdirə bilmişdi. 1945-ci ildə Bakıda ilk dəfə dövlət səviyyəsində Azərbaycan sirki təşkil olunanda rejissorluq işi Soltan Dadaşova tapşırıldı. Onun rejissorluğunda proqramlara milli "zorxana", "qaravəlli", "hoqqa" oyun estetikalarının prinsip və formalarını cəsarətlə gətirməsi ilə sirk kollektivi Moskvada, Peterburqda, Minskdə, Riqada, Vilnüsdə, Tallində çıxışlar edib. 1967-ci ildə Soltan Dadaşov sirk proqramında milli folklorumuzun bütün estetik gözəlliklərini, etno-mədəni tariximizin oyun-tamaşa səciyyələrini təcəssüm etdirən xüsusi "Novruz" proqramı hazırlayıb.

Opera və Balet Teatrında işləyən Soltan Dadaşov 1949-cu ildə bağlanmış Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyorlarını, əsasən Filarmoniyanın estradasında çalışan sənətçilərini bir yerə cəm edib. 1954-cü ildə dövlət sözü yazılmadan Azərbaycan Musiqili Komediya Teatrı kimi truppanın fəaliyyətinə nail olub. "Arşın mal alan", "Məşədi İbad", dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Ağası Məşədibəyovun "Toy kimindir?", dramaturq Süleyman Rüstəmin və bəstəkar Səid Rüstəmovun "Durna" operettalarını burada tamaşaya hazırlayıb. Məhz bu kollektivin güclü bazasında truppa 1956-cı ildə yenidən Azərbaycan Dövlət Musiqili Komediya Teatrı kimi fəaliyyətə başlayıb və bu günədək yaradıcılığını davam etdirməkdədir. S.Dadaşovun rejissor üslubunun novatorluq xüsusiyyətləri, məzmun və forma həllində milli xalq oyunlarından bəhrələnmə cəhdləri Gənc Tamaşaçılar Teatrının yaradıcı heyətinin də diqqətini cəlb etmişdi. İyirmi yaşına çatanda sənətkar kimi qəbul olunan Soltan Dadaşovun rejissorluğu ilə 1933-1936-cı illər ərzində GTT-də Qriqori Kornellinin "Qaçaq Səməd", Zəfər Nemətovla Əli Həsənovun "Qaralar Ölkəsində", Əli Həsənovla Əliməmməd Atayevin "Sürət", "Çelyuskinçilər", Mirmehdi Seyidzadənin "Nərgiz" əsərləri tamaşaya qoyulmuşdur. Onun rejissorluğu ilə Dağıstan Muxtar Respublikasındakı Süleyman Stalski adına Ləzgi Dövlət Dram Teatrında M.Xurişlova ilə M.Çistyakovanın "Şahid Sulak" (1960) pyesi tamaşaya hazırlanıb. Soltan Dadaşovun yazdığı, Mirzə Ələkbər Sabirin yaradıcılığının bədii məziyyətlərini, kəskin satirasının ictimai mahiyyətini təcəssüm etdirən "Keçmişin məişət səhnələri" librettosuna Vasif Adıgözəlov musiqili komediya bəstələyib. Həmin əsər 1962-ci ildə rejissor Əliheydər Ələkbərovun quruluşunda Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulub.

1934-cü ildən pedaqoji fəaliyyətlə də məşğul olan S.Dadaşov uzun illər Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib. Milli opera teatrı tarixini, onun görkəmli sənətkarlarının yaradıcılıq yolunu dərindən bilən S.Dadaşov "Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrı" kitabının, Xalq artisti Hüseynağa Hacıbababəyov barədə monoqrafiyanın müəllifidir. Eyni zamanda Azərbaycan estradasında rejissorluq etmiş, Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı üçün rəngarəng proqram kompozisiyaları hazırlayıb. Azərbaycan musiqili teatrının inkişafında xidmətlərinə və rejissorluq sənətində qazandığı ciddi nailiyyətlərə görə Soltan Dadaşov 1940-cı il aprelin 23-də Azərbaycan SSR Əməkdar incəsənət xadimi və 1958-ci il aprelin 26-da Xalq artisti fəxri adları ilə təltif olunub.

***Görkəmli sənətkar S.Dadaşov 1969-cu il sentyabrın 7-də Bakıda vəfat edib. Məzarı ikinci Fəxri Xiyabandadır.***

# "İstanbul prinsipləri" yenidən gündəmdə

## Rusiya və Ukrayna arasında sülhün təmin olunması üçün bu prinsiplər daha konstruktivdir

Rusiya-Ukrayna müharibəsi region üçün ciddi problemlər yaratmaqla yanaşı geosiyasi proseslərə də əhəmiyyətli dərəcədə təsir göstərir. Eləcə də bu müharibə dünya iqtisadiyyatına təsirsiz ötüşmür. Qərb ölkələrinin birmənalı olaraq Ukraynanı dəstəkləməsinə, onu silahla təmin etməsinə baxmayaraq, bir sıra dövlətlər davamlı olaraq tərəflər arasında sülhün əldə olunmasına çalışır. Bu dövlətlər arasında Türkiyə daha çox fəallıq göstərir.

### Lavrov Rusiyanın "İstanbul prinsipləri"nə qayıtmağa hazır olduğunu deyib

Təsadüfi deyil ki, bugünlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov yerli mətbuata müsahibəsində deyib ki, Rusiya Ukrayna ilə münaqişənin nizamlanmasına dair "İstanbul prinsipləri"nə qayıtmağa hazırdır, ancaq bu, yeni reallıqlar əsasında olmalıdır. Onun sözlərinə görə, həmin prinsiplər Kiyevin NATO-ya daxil olmaması, blokdankənar statusunu saxlaması və Ukraynanın özünü rahat hiss etməsi üçün onun təhlükəsizliyinin təsvirindən ibarətdir: "Bu prinsiplər qüvvəsində qalır. Ən azı biz bu prinsiplərə qayıtmağa hazırıq, amma təbii ki, yeni reallıqlar nəzərə alınmaqla... Çünki o vaxtdan 2 il yarım keçib. Bu reallıqları prezident Vladimir Putin də açıqlayıb, Ukrayna, Rusiya və Qərb arasında nizamlanmanın yolunu göstərib".

Ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsinin dayandırılması, o cümlədən taxıl böhranının həlli yönündə Türkiyənin göstərdiyi səylər dünyada sülh tərəfdarı olan ölkələr tərəfindən yüksək dəyərləndirilir. Həqiqətən də, Türkiyə Rusiya-Ukrayna müharibəsinin dayandırılması, eləcə də müharibənin yaratdığı humanitar problemlərin qarşısının alınması üçün böyük fəallıq göstərir. Türkiyənin bu yöndə təşəbbüsləri müharibə aparan ölkələr tərəfindən də təqdir olunur. Rəsmi Ankara bölgədə sabitliyin təmin olunması üçün müntəzəm olaraq həm Kreml, həm də Kiyevlə təmasdadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hər iki ölkənin lideri ilə danışıqlar aparır. Türkiyə böyük dövlətdir və bölgədə baş verən proseslərə təsir imkanları var. Son illər Türkiyə regional güc kimi özünü təsdiq edib. Yaxın Şərq böhranı ilə bağlı rəsmi Ankaranın oynadığı rol beynəlxalq birliyə çox yaxşı məlumdur. Hazırda isə Rusiya-Ukrayna müharibəsinin tezliklə bitməsi üçün Türkiyənin böyük fəallığı göz önündədir.

### Türkiyənin təşəbbüsləri hansı nəticələr verib?

Qeyd etdiyimiz kimi, Türkiyənin təşəbbüslərinə müharibənin tərəfi olan hər iki ölkə etimad göstərir. Nəzərə alaq ki, ABŞ və Avropa İttifaqı ölkələri Ukraynaya fəal hərbi dəstək verir. Bu da Rusiya tərəfindən qəbulolunmaz hesab edilir. Rusiyanı dəstəkləyən ölkələr isə Ukrayna tərəfindən qəbul olunmur. Amma qardaş Türkiyə iki ölkə arasında müharibənin bitməsi üçün heç bir maraq güdmədən, səmimi olaraq çalışır. Türkiyə müharibədən əziyyət çəkən insanlara humanitar yardım göstərir, eləcə də onun vasitəçiliyi ilə münaqişə zonalarında dinc əhali üçün humanitar dəhlizlər açılıb.

Lavrovun "İstanbul prinsipləri" adlandırdığı məsələ isə müharibənin yeni başladığı 2022-ci ildə tərəflərin görüşü zamanı razılaşdırılmışdı. Xatırladaq ki, həmin il Antalya Diplomatiya Forumu çərçivəsində Rusiya və Ukrayna xarici işlər nazirlərinin görüşü keçirilmişdi. Eyni zamanda, daha sonra Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda keçirdiyi görüş sülh prosesinə müsbət təkan verdi. Bu görüşdə əldə olunmuş razılıq əsasında Rusiya öz qoşunlarını Kiyevin ətrafından və digər bəzi yerlərdən geri çəkdi. Rusiyanın Kiyev və Çerniqovda hərbi əməliyyatlarını əhəmiyyətli dərəcədə azaltmaq qərarı həqiqətən də mühüm addım idi və bu, İstanbul görüşünün nəticəsində baş verdi.



### "Taxıl sazişi" də Ankaranın vasitəçiliyi ilə baş tutmuşdu

Xatırladaq ki, 2022-ci ildə uzun müzakirələrdən sonra taxıl sazişi üzrə iyulun 13-də İstanbulda Türkiyə, Ukrayna, Rusiya və BMT nümayəndələrindən ibarət dördtərəfli görüş keçirilmişdi. Bu görüşün nəticəsi olaraq həmin il iyulun 22-də həmin məkanda taxıl ixracına dair saziş imzalandı. Sazişə uyğun olaraq, İstanbulda Rusiya və Ukrayna, BMT və Türkiyə nümayəndələrindən ibarət Birgə Koordinasiya Mərkəzi yaradılmışdı. "Taxıl və ərzaq mallarının Ukrayna limanlarından təhlükəsiz daşınması təşəbbüsü" razılaşmasına əsasən, müxtəlif ölkələrə on milyonlarla ton Ukrayna taxılı daşındı. Saziş Türkiyənin fəal diplomatiyası nəticəsində bir neçə dəfə uzadıldı. Lakin Qərb dövlətlərinin öz vədlərini yerinə yetirməməsi səbəbindən Rusiya ötən ilin iyulundan sonra taxıl sazişinin uzadılmasından imtina etdi.

Qeyd edək ki, Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə həll olunmasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyəti də xüsusi vurğulanmalıdır. Məhz bu səbəblərə görə, Ərdoğanın Nobel mükafatına layiq görülməsi təklif olunmuşdu. Çünki Rəcəb Tayyib Ərdoğan Türkiyənin lideri olaraq Rusiya-Ukrayna müharibəsinin dayandırılması üçün təkcə çağırışlar etmir, eyni zamanda, vacib addımlar atır. Ərdoğanın rəhbərliyi ilə Türkiyə diplomatiyası sülh quruculuğuna hədəflənib. Hazırda da rəsmi Ankara müharibənin tamamilə dayandırılması üçün sülh təşəbbüslərini davam etdirir.

Lakin hazırkı şəraitdə tərəflərin "İstanbul prinsipləri"nə qayıtması isə suallar doğurur. Çünki ötən dövr ərzində hər iki ölkə şərtlərini daha da sərtləşdirir. Qərb tərəfindən dəstəklənən Ukraynanın sülh üçün şərtləri başqadır, Rusiya isə ələ keçirilən əraziləri geri qaytarmağı düşünmür. Lavrov "yeni reallıqlar nəzərə alınmalıdır" deməklə yəqin ki, bunu nəzərdə tutur. Bütün hallarda sülhə gəlmək üçün "İstanbul prinsipləri" öz üstünlüyünü qoruyub saxlamaqdadır.

*Nardar BAYRAMLI*

# Gözləntilər özünü doğrultmur

## ABŞ silahları Kiyevə kömək etmir?

Rusiya-Ukrayna müharibəsi başlayandan Qərb dövlətləri Kiyevə milyardlarla dollar həcmində hərbi yardımlar göstərir. NATO ölkələri arasında Kiyevə ABŞ daha çox hərbi dəstək verib. Xatırladaq ki, ABŞ-ın Ukraynaya yardımlarını maliyyələşdirmək üçün yeni vəsaitlərin ayrılması məsələsi Konqresdə ötən ilin payızından müzakirə olunsa da, fikir ayrılıqları səbəbindən yekun qərar qəbul olunmurdu. Nəhayət, bu ilin aprelində Konqres 61 milyard dollarlıq yardımı təsdiq etməklə Ukraynaya "müttəfiqliyinə sadiq olduğunu" göstərmək istədi. ABŞ-ın 61 milyard dollarlıq yeni yardım paketində nəzərdə tutulan ATACMS taktiki ballistik raketləri və hava hücumundan əlavə müdafiə vasitələrinin döyüş meydanındakı vəziyyəti Ukrayna Silahlı Qüvvələrinin xeyrinə dəyişə biləcəyi gözlənilirdi. Hesab olunurdu ki, ATACMS Rusiyanın cəbhədəki logistik imkanlarını zəiflədə bilər. Eyni zamanda, ABŞ-ın Kiyevə tədarük edəcəyi hava hücumundan müdafiə sistemləri Ukrayna ordusu üçün döyüş meydanında yaranan ağır vəziyyəti yüngülləşdirməyə yardım edəcək.

### Con Kirbi: ATACMS Rusiya təyyarələrinin 90 faizini vura bilmir

Lakin ABŞ Milli Təhlükəsizlik Şurasının Strateji Kommunikasiyalar üzrə koordinatoru Con Kirbi deyib ki, ATACMS taktiki raket sistemləri Rusiyaya məxsus döyüş təyyarələrinin 90 faizini vurmaq iqtidarında deyil. Onun qənaətincə, Rusiya qırıcıları modernləşdirmə tədbirləri sayəsində sözügedən sistemlərin hədəfindən yayına bilir. C.Kirbi eyni zamanda ölkəsinin Ukraynanın Rusiya ərazisinə zərbələr endirməsinin mümkünlüyü ilə bağlı siyasətində dəyişikliyin olmadığını vurğulayıb. ABŞ rəsmisinin sözlərinə görə, rəsmi Vaşinqtonun Ukraynaya xüsusilə də hava hücumundan müdafiə sahəsində dəstəyi davam etdiriləcək.



Qeyd edək ki, ATACMS ABŞ-ın müdafiə sənayesi şirkəti olan Lockheed Martin tərəfindən istehsal olunan yer-yer tipli raketdir (SSM). Bərk yanacaqla işləyən raketin mənzili 190 mil (310 km), hündürlüyü 13 fut (4,0 m), diametri isə 24 düym (610 mm) təşkil edir. ATACMS, M270 MLRS və M142 Yüksək Hərəkətli Artilleriya Raket Sistemi (HIMARS) də daxil olmaqla, bir çox reaktiv yaylım atəş sistemindən buraxıla bilər. ABŞ bu raketlərdən ilk dəfə Körfəz müharibəsi zamanı İraqa qarşı istifadə edib.

### Ramil Məmmədli: Son illər Rusiya hərbi təyyarələri üzərində ciddi modernləşdirmə işləri görülüb



Rusiyanın döyüş təyyarələrinin modernləşdirilməsi də diqqəti cəlb edir. Modernləşdirmə hansı istiqamətlərdə həyata keçirilib? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən hərbi ekspert Ramil Məmmədlinin sözlərinə görə, Rusiya 20 ildir ki, öz invertarında olan döyüş təyyarələrinin üzərində modernləşmə siyasəti həyata keçirir. Son 10 ildə isə modernləşdirmə layihələrinin miqyası artıb. Belə ki, əvvəllər MİQ-29, SU-25, SU-27 üzərində modernləşmə layihələri daha çox keçirilirdisə, bu gün həmin proses yeni nəsil hərbi təyyarələr hesab olunan SU-30, SU-35 qırıcıları üzərində də aparılır.

Ekspert bildirib ki, SU-57 daha müasir, beşinci nəsl olduğu üçün onun üzrərində yalnız silahların yerləşdirilməsi ilə bağlı yeniliklər edilir: "Modernləşmə layihələri dünyada radiolakasiya sistemlərinin meydana gəlməsi, həmçinin hava hücumundan müdafiə sistemlərinin formalaşması, hava-hava, yer-hava raketlərinin yeni növlərinin istifadəyə verilməsi ilə bağlıdır. Son illərdə Rusiya MİQ-29, SU-27, SU-30 təyyarələrinin modernləşməsində aviasiya silahlarının sayının artırılması, radar müdafiə sistemlərinin yeni iş rejimində işləməsi, naviqasiya sistemlərində dəqiqliyin artırılması və funksionallığın genişləndirilməsinə üstünlük verir. Bu da hava hücumlarından müdafiə sistemlərindən yayınmaq üçün çox effektli vasitələrdir".

Bununla yanaşı, R.Məmmədli deyib ki, təyyarə mühərriklərinin döyüşün idarə edilməsi sisteminin yenilənməsi də reallaşdırılıb: "Artıq mühərriklərin forsaj imkanları daha da gücləndirilib. Bu isə təhlükəli əraziləri sürətlə tərk etmək, hədəflərdən yayınmaq imkanlarını artırır. Rusiyanın qırıcılarında həm də, informasiyanın toplanması və ötürülməsi sistemi də modernləşdirilib, eləcə də kabinəarxası audio və video sistemləri də artırılıb. Yəqin ki, ABŞ rəsmisi Con Kibri də bu məqamları əsas götürərək Ukraynaya verdikləri silahların Rusiya qırıcılarını vurmağa imkanlarının çatmadığını deyib".

*N.BAYRAMLI*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# “Tanrıların hədiyyəsi” - qəhvəyi qızıl: Şokolad!



**İndiki dövrdə şokolad sevməyən insan yaqin ki, çox az tapılar. Təbii kakaodan hazırlanan şokoladın qəbulu əhval-ruhiyyəni yaxşılaşdırır, stressi və narahatlığı götürür, hətta xoşbəxtlik hormonu olan endorfin ifrazına belə səbəb olur. Əlbəttə, söhbət əsl kakao yağından hazırlanan təbii şokoladdan gedir. Təəssüflər olsun ki, müasir kapitalizmdə ən aparıcı ölkələrdə belə, qida sənayesinin istehsal etdiyi şokolad məmulatlarının böyük əksəriyyəti sintetik maddələrdən hazırlanır. Təbii kakaodan hazırlanan natural şokoladlar isə hər kəsin cibinə uyğun deyil. Bəs, süfrələrimizdən əskik olmayan sevimli şokoladın tarixçəsi haqqında nə bilirik?**

## Tanrıların içkisi

Məlumunuz olsun ki, şokolad mədəniyyətinin kökü Amazon meşələrinə gedib çıxır. Qida kimi istifadə olunan ən qədim kakao qalıqları keçmiş dövrlərdə Meksika ərazisində yaşayan Olmek qəbilələrinə aid keramik qablarda tapılıb. Daha sonra kakao bitkisindən istifadə olmeklərdən Mayya xalqına keçib. Kakaodan hazırlanan soyuq içki o qədər bahalı, əlçatmaz bir nemət sayılırdı ki, onu “tanrıların hədiyyəsi” adlandırırdılar. Hətta Mayya tanrılarının arasında xüsusi kakao tanrısı “Ek Çuaxa” da var idi. Odur ki, tarixdə ilk kakao plantasiyalarını Mayya qəbilələri yaratmışdılar.

Mayyalılar kakaonu yüksək qiymətləndirir və hətta ondan pul vahidi kimi istifadə edirdilər. Təsadüfi deyil ki, Ek-Çuaxa tanrısı həm ticarətin, həm də kakaonun hamisi sayılırdı. Kakao içkisindən nikah məclislərində, eləcə də dəfn mərasimlərində geniş istifadə olunurdu. Kakao toxumlarından hazırlanan içkinin rəngi qırmızı olduğundan hindular onu insan bədənində dövr edən, müqəddəs bildikləri qanla eyniləşdirirdilər.

Mayyalılar kakao içkisinə ədviyyat, çili bibəri, bəzən də qarğıdalı unu əlavə edirdilər. Bu məhsuldan əsasən xalqın seçilmiş nümayəndələri: kahinlər, qəbilə başçıları və döyüşçülər istifadə edirdilər. Kakao içkisi, bir qayda olaraq, soyuq içilirdi.

Bu möcüzəvi şokolad içkisi mayyalılardan sonra başqa bir hindu tayfası olan Azteklər tərəfindən də istifadə edilməyə başladı. Lakin içkinin acılığı Aztek hökmdarı Montesumun xoşuna gəlmədi. Ona görə də hökmdarın istəyi ilə kakao içkisinin tərkibində dəyişiklik edildi. Azteklər kakao içkisinə bal və aqava meyvəsinin şirin şirəsini əlavə etməyə başladılar. Bu cür yeni qatqılara görə tərkibi dəyişərək qatılaşan kakao içkisi müasir isti şokoladın dadına daha yaxın idi.

## Kolumbun Amerikaya bərabər kəşfi

Tarixdə deyilir ki, hinduların bu müqəddəs içkisi barədə məlumatlanan ilk avropalı şəxs, məşhur səyyah Xristofor Kolumb olmuşdu. 1502-ci ildə Gayana adasına səyahət edən Kolumbu ada sakinləri ilk avropalı qonaq kimi qəbul edir və qonaqpərvərliyin göstəricisi olaraq onu müqəddəs kakao içkisi ilə qarşılayırlar. Hinduların hazırladığı kakaonu içən səyyah bu məcunun qeyri-adi dadına heyran olur. O, yerli sakinlərdən bu içkinin necə hazırlandığını, kakao bitkisinin harada bitdiyini soruşaraq özü üçün çoxlu əlavə məlumat toplayır. Adaya dördüncü səyahətindən sonra Kolumb nəhayət ki, hinduların müqəddəs saydığı kakao toxumlarını əldə edə bilir və onu ispan kralı Ferdinanda çatdırır.



## Acıdan şirinə, soyuqdan istiyə...

1519-cu ildə Meksikanı işğal edən ispaniyalı Hernan Kortes də kakao içksinin dadına baxır. İçki onun çox xoşuna gəlir. Yerli hindulardan içkinin reseptini istədikdə, hindular “bu tanrıların içkisidir, onun sirrini aça bilmərik” deyə cavab verirlər. Kortes, müqəddəs içkinin hazırlanma sirrini asanlıqla vermək istəməyən hindu başçısına işgəncə verdirərək resepti öyrənməyə nail olur. Beləliklə, kakao içkisi İspaniyaya da gedib çıxır. Sonralar ispanlar müqəddəs içkinin tərkibini bir qədər dəyişərək çili bibərini vanillə əvəz edir, ona fındıq əzməsi və şəkər də qatırlar. Müqəddəs hindu içkisi tədricən öz tərkibini dəyişərək “isti şokolad” adı altında bütün Avropa ölkələrində yayılmağa başlayır. Və beləcə, 1657-ci ildə Londonda ilk “Şokolad evi” açılır. Bu içkinin satışından yaxşı gəlir əldə etdiklərinə görə avropalılar kakaonu “qəhvəyi qızıl” adlandırırdılar. Beləliklə, şokoladlı içki ingilis mədəniyyətinin xüsusi elementlərinin birinə çevrilir.

## Kakaonun narkotik effekti

Missioner Bernardino de Saqun (1547-1577) özünün “Yeni İspaniyanın ümumi tarixi” əsərində kakao haqqında yazırdı: “Onu təzə-təzə, yaşıl halında çox içən adamın şüuru qarışır. Əlbəttə, məcunun bu cür qəbul olunması adamı haldan-hala salır və onu məst edir. Bu içkini çox qəbul etsən o, səndən üz çevirər, ürəyini titrədər, səni dəli vəzyyətinə gətirib çıxarar. Ancaq onu təmkinlə, normada içsən, həddi aşmasan gücünə güc qatar, səni tərəvətləndirər. Bu içki, eyni zamanda daxili gərginliyi götürür, sakitləşdirir və insanı sərtlikdən yumşaqlığa endirir”.

Beləliklə, İspaniya tezliklə kakao paxlasının ən böyük idxalçısına çevrilir. Hindu möcüzəsi tədricən digər Avropa ölkələrinə, Mərkəzi Amerikadan kakao gətirməyə başlayan Fransa və İtaliyaya da yayılır. Məhsul hər dəfə ölkədən-ölkəyə keçdikcə orijinal resept dəyişikliklərə məruz qalır. İçki soyuqdan istiyə, acıdan şirinə (darçın və şəkər əlavə edilməsinə görə) doğru təkamül edir. Beləliklə şokolad qədim bütpərəst kult obyektindən Avropa delikatesinə çevrilir.

## Şokolad inqilabı

Hələ elektrik çarxların meydana çıxmasına qədər, fəhlələrin dən üyüdüb un almaq üçün əllə fırladığı dəyirman çarxları uzun müddət kakao paxlalarını emal edərək şokolad istehsal etməyə başladı. Şokolad dünyasında əsaslı inqilabı hollandiyalı van Houten ailəsi həyata keçirdi. Belə ki, 1828-ci ildə onlar qovrulmuş kakao paxlasından yağ çıxarmaq üçün güclü pres aparatı icad edərək patentləşdirdilər. Kakaonun yağını presləyib çıxardıqdan sonra sıxılmış cecəsini qurudaraq üyüdüb toz halına gətirdilər. Alınan yağsız kakao tozu suda və ya süddə asanlıqla həll olundu. Xarakterik acı dadından xilas edilən məhsulu yeməkdə də istifadə etməyə başladılar. Və nəhayət, həmin kakao ununu yenidən kakao yağı və başqa məhsullarla qarışdıraraq bu gün bildiyimiz formada şokolad əldə etdilər.

İlk şokolad çubuğu 1847-ci ildə “JS Fry & Sons” kompaniyası tərəfindən istehsal edilib. Daha sonra südlü şokoladın orijinal resepti isveçrəli Daniel Peter tərəfindən hazırlanıb. Getdikcə sevilən və populyarlaşan şokolad məhsulu 19-cu əsrin sonlarına doğru nadir məhsul statusunu itirərək kütləvi şəkildə istehsal olunmağa başladı.

20-ci əsrdə isə kakao və onun emal məhsullarından istifadə müxtəlifliyi hədsiz dərəcədə çoxaldı. Doğrudur, şokolad artıq, ilk vaxtlarındakı kimi qeyri-adi, möcüzəli nemət sayılmasa da, öz zərif estetikasını və cazibəsini hələ də qoruyub saxlamaqdadır.

***Murad Köhnəqala***

# “Bakcell” və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti jurnalistlərlə görüşüb




Ölkənin ən sürətlisi “Bakcell”, 4 sentyabr tarixində Bakı Şəhər Halqası Əməliyyat Şirkəti ilə birgə jurnalistlər üçün səhər yeməyi təşkil edib.

Görüşdə “Bakcell” və “Bakı Şəhər Halqası Əməliyyat Şirkəti” nümayəndələri Azərbaycanda keçiriləcək sürət yarışının əhəmiyyəti barədə ətraflı danışıb, media nümayəndələrini maraqlandıran sualları cavablandırıblar.

“Bakcell”in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova çıxışında “Bakcell” və “FORMULA 1 QATAR AIRWAYS AZƏRBAYCAN QRAN PRİSİ 2024” çərçivəsində tərəfdaşlığın təsadüfi olmadığını vurğulayıb: “Hər iki tərəf özündə sürət və innovasiyaları ehtiva edir. Aprel ayında yeni brend strategiyasını təqdim edən “Bakcell”, ötən dövr ərzində bir sıra innovativ və yüksək sürətli məhsullarını istifadəçilərin ixtiyarına verib. Belə ki, şirkət ölkəmizdə mövcud ən sürətli internet xidmətini - “Fiber 1” məhsulunu təqdim edib. Bundan əlavə, “Bakcell”in yeni məhsulları olan VoWiFi (Wi-Fi üzərindən zəng) xidməti, ən geniş partnyor şəbəkəsinə malik “Bakcell Kart” və süni intellekt dəstəkli “Tarif Məsləhətçisi” müştərilərimizin xüsusi marağına səbəb olub”.

Qeyd edək ki, “Bakcell” “FORMULA 1 QATAR AIRWAYS AZƏRBAYCAN QRAN PRİSİ 2024”ün rəsmi tədbir sponsorudur. Bununla bağlı “Bakcell” və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) çərçivəsində müqavilə imzalanıb.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verməyə çalışır və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## *İdman*

### Formula 1 üzrə Azərbaycan Qran-Prisinin Uniforma və Akkreditasiya Mərkəzi fəaliyyətə başlayıb



Formula 1 üzrə Azərbaycan Qran-Prisinin Uniforma və Akkreditasiya Mərkəzi fəaliyyətə başlayıb.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən AZƏRTAC-a verilən məlumata görə, yarışın başlamasına qısa müddət qalıb və hazırlıqlar plana uyğun davam edir.

Yarışın əsas hazırlıq mərhələlərindən biri olan Uniforma və Akkreditasiya Mərkəzi artıq fəaliyyətə başlayıb. Formula 1 Azərbaycan Qran-Prisinin təşkilinə cəlb olunacaq əməkdaşlar, könüllülər, marşallar, təhlükəsizlik əməkdaşları və podratçı şirkətlərin nümayəndələri bu mərkəzə gələrək, akkreditasiya kartları və uniformalarını əldə edə bilərlər. Yarışa qədər 28000-ə yaxın akkreditasiya və formanın verilməsi nəzərdə tutulub.

Avqustun 19-dan etibarən fəaliyyət göstərən Uniforma və Akkreditasiya Mərkəzinə 100-dən artıq könüllü cəlb edilib. Mərkəz fəaliyyət göstərdiyi müddətdə onlar qeydiyyat, akkreditasiya kartlarının hazırlanması, uniformaların verilməsi və sair rolları yerinə yetirəcəklər.

Bu il könüllü olmaq üçün 16000-ə yaxın müraciət daxil olub və onlardan 2000-ə yaxını yarışın təşkilinə cəlb olunub.

Qeyd edək ki, Bakının 8-ci dəfə ev sahibliyi edəcəyi Formula 1 Azərbaycan Qran-Prisi sentyabrın 13-15-də baş tutacaq.

### Azərbaycan klubunun adı dəyişdirilib

Azərbaycanın “NTD-İndiqo” basketbol klubunun adı dəyişdirilib.

“Report” klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, komanda bu mövsümdən NTD adlandırılacaq və yenidən Bakını təmsil edəcək.

Həmçinin klubun yeni loqosu təqdim olunub. Baş məşqçi Tahir Baxşıyev komandadakı işini davam etdirəcək.

Qeyd edək ki, NTD ad dəyişikliyindən öncə Xaçmazı təmsil edirdi.

### “Formula 1”: Azərbaycan Qran-prisində tribunaların tutumu 35 faiz artıb



“Formula 1” üzrə Azərbaycan Qran-prisində ötən illə müqayisədə tribunaların tutumu 35 faiz artıb.

“Report”un məlumatına görə, bu barədə Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin baş direktoru Maqsud Fərzullayev “Euronews” telekanalına müsahibəsində bildirib.

“Formula 1” qlobal miqyasda genişlənən və inkişaf edən bir idman növüdür. Bu yarışa ev sahibliyi etmək ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, həm də ona böyük iqtisadi imkanlar qazandırır. Turizmdən əldə edilən gəlirlər, xarici qonaqların şəhərə olan marağı və iqtisadiyyata verdiyi töhfə 2016-cı ildən bəri hər il daha da artmaqdadır”, - deyə M.Fərzullayev vurğulayıb.

Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 13-15-i aralığında baş tutacaq.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4898
Sifariş: 2030
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli